## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA BAKININ BİNƏ QƏSƏBƏSİNDƏ "ÜMİD YERİ" UŞAQ SIĞINACAĞININ YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iyunun 13-də Bakının Xəzər rayonunun Binə qəsəbəsində "Ümid yeri" uşaq sığınacağının yeni inşa olunan binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, "Ümid yeri" uşaq sığınacağının...



Bax səh. 2

## YASAMAL RAYONUNDAKI 11 SAYLI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ YENİ BİNASININ AÇILIŞI OLUB

İyunun 13-də Bakının Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçası üçün Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən yeni binanın açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılışda iştirak edib. Məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verilib ki, 2 korpusdan ibarət 11 saylı...



Bax səh. 2




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 14 iyun 2019-cu il, cümə / № 106 (5481). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





## Prezidentin iş günü

Çili Respublikasının Prezidenti Sebastian Pinera Eçenike Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

⁂

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının akademiki Viktor Matveyev Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

⁂

Prezident İlham Əliyev Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

## Qafqaz Müsəlmanları İdarəsinin sədri Avstriyaya səfər edəcək



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 16-21-də Avstriyada səfərdə olacaq. Səfər müddətində Vyana şəhərində bir sıra görüş və tədbirlərin keçirilməsi...

Bax səh. 6

## Vaşinqtondakı Atlantik Şurada Azərbaycanın xarici siyasətinə həsr olunan tədbir keçirilib

ABŞ-ın paytaxtı Vaşinqtonda fəaliyyət göstərən nüfuzlu düşüncə mərkəzlərindən olan Atlantik Şurada Azərbaycanın xarici siyasətinə həsr olunmuş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ABŞ-Azərbaycan münasibətləri ilə bağlı çıxış edib. Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Atlantik Şuranın Qlobal Enerji Mərkəzinin təsisçi sədri və ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Morninqstarla müzakirəsi baş tutub. Tədbirdə əsasən Vaşinqtonda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, ictimai-siyasi xadimlər və...

Bax səh. 6



## ƏLİ ƏHMƏDOV: MİLLİ QURTULUŞ GÜNÜ MÜASİR AZƏRBAYCAN TARİXİNİN DÖNÜŞ NÖQTƏSİDİR

İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin təşəbbüsü ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri Riyad Rüstəmli 15 İyun - Milli Qurtuluş Gününün...

Bax səh. 4

## SOFİYADA DÜNYA XƏBƏR AGENTLİKLƏRİNİN VI KONQRESİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

İyunun 13-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Dünya Xəbər Agentliklərinin VI Konqresinin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Bolqarıstanın BTA agentliyinin təşkilatçılığı ilə "Xəbərlərin gələcəyi" devizi altında keçirilən Konqresdə dünyanın 100-ə yaxın ölkəsindən 200-dək aparıcı xəbər agentliyinin rəhbərləri və nümayəndələri, media üzrə beynəlxalq ekspertlər, həmçinin nüfuzlu media qurumlarının təmsilçiləri iştirak ediblər. BTA agentliyinin icraçı direktoru Maksim Minçev tədbiri açaraq Dünya Xəbər Agentlikləri Konqresinin tarixi, habelə gündəlikdə duran məsələlər barədə məlumat verib. M.Minçev qeyd edib ki, bu gün müasir dünyada xəbər yayımı bir çox problemlərlə üzləşir. Bugünkü tədbirdə obyektiv xəbərlərin yayılması, feyk xəbərlərin qarşısının alınması istiqamətində addım atmaq üçün gözəl imkan var. Biz bu iş uğrunda səylərimizi birləşdirməliyik. Maksim Minçev AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin...

Bax səh. 6



## MİLLİ MƏCLİSİN NÖVBƏDƏNKƏNAR SESSİYASI ÖZ İŞİNƏ BAŞLAYIB

İyunun 13-də Milli Məclisin növbədənkənar sessiyası öz işinə başlayıb. Parlamentin sədri Oqtay Əsədov iclası açıq elan edib. Sonra Azərbaycanın dövlət himni səsləndirilib. Oqtay Əsədov iyunun 13-də və 14-də keçiriləcək plenar iclasın gündəliyinə 36 məsələnin daxil olduğunu bildirib. İclasda əvvəlcə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli...

Bax səh. 3

## Milli Məclisin deputatları "DOST" mərkəzi ilə tanış olublar



Milli Məclis Sədrinin müavini Bahar Muradova, parlamentin komitə sədrləri və deputatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyinin 1 saylı "DOST" mərkəzində olublar...

Bax səh. 3

## Qurtuluşun fəlsəfəsi

Yalnız yüksək amallara xidmət edən cahanşümul bir ideya, qloballaşan dünyada gedən proseslərin obyektiv dərkinə əsaslanan hərtərəfli işlənib hazırlanmış elmi konsepsiya bu gün haqqında hər birimizin böyük qürur hissi ilə...



Bax səh. 5

## *Eldar İbrahimov:* Bu, sadəcə, təqvim bayramı deyil, böyük tarixi əhəmiyyətə malik gündür

...Müstəqilliyin ilk illərində Azərbaycanda olduqca gərgin vəziyyət var idi. Bu gərginliyi hər bir vətəndaş görür, müşahidə edirdi. Bir deputat kimi...



Bax səh. 5

## Müasir müstəqil Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir

...Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra...



Bax səh. 6

## Bakıda ÜGT-nin İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi davam edir

Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları və Texnoloji...



Bax səh. 3

# Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han bu gün iştirak etdikləri V Azərbaycan-Avropa İttifaqı Biznes Forumuna toxunaraq, buraya xeyli sayda iştirakçının gəlməsini bu tədbirə verilən önəm kimi dəyərləndirib və Forum çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox səmərəli müzakirələrin aparıldığını qeyd edib.

Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı mühüm işlərin görüldüyünü və artıq yaxşı nəticələrin əldə edildiyini bildirib. Prezident İlham Əliyev müxtəlif sahələrdə, o cümlədən sənaye, kənd təəssüratı, turizm və digər sahələrdə nailiyyətlər əldə edildiyini vurğulayaraq, bütün bunların ölkənin davamlı iqtisadi inkişafı üçün yaxşı əsas yaratdığını deyib.

Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han Azərbaycanı Avropa İttifaqı üçün aparıcı tərəfdaş ölkələrdən biri kimi qiymətləndirib və Avropa İttifaqının ölkəmiz ilə bütün sahələrdə əməkdaşlığa xüsusi diqqət yetirdiyini vurğulayıb. Qonaq onu da qeyd edib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqların yekunlaşması əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə ciddi təkan verəcək. O, Azərbaycanın Avropa İttifaqı üçün enerji sahəsində əsas strateji tərəfdaş olduğunu bildirib və Cənub Qaz Dəhlizi layihəsinin qısa zamanda yekunlaşacağına əminliyini ifadə edib. Komissar Yohanes Han, həmçinin qeyd edib ki, Azərbaycan Avropanı geniş Avrasiya məkanı ilə birləşdirən mühüm nəqliyyat dəhlizidir və bu sahədə saziş və layihələrin imzalanması və həyata keçirilməsinin tərəfdarıdır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin də vacibliyi vurğulanıb.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

# Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçasının yeni binasının açılışı olub

## *Birinci vitse-prezident Mehriban Əliyeva açılışda iştirak edib*



İyunun 13-də Bakının Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçası üçün Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən yeni binanın açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verilib ki, 2 korpusdan ibarət 11 saylı körpələr evi-uşaq bağçası müasir tələblərə cavab vermədiyindən mövcud 150 yerlik binası sökülüb, onun yerində Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir tipli 200 yerlik körpələr evi-uşaq bağçası tikilib. Körpələr evi-uşaq bağçasının inşasına 2018-ci ilin mayında başlanılıb. Tikinti işləri yüksək səviyyədə həyata keçirilib.







Bildirilib ki, yeni binada komplektləşdirilmiş qrup otaqları, mətbəx və yeməkxana, idman və musiqi zalları, həmçinin digər otaqlar var. İkimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Məktəbəqədər təhsil müəssisəsində 6-sı Azərbaycan, 4-ü isə rusdilli bölmə olmaqla ümumilikdə 10 qrup fəaliyyət göstərəcək. Körpələr evi-uşaq bağçasında bir yaşdan 6 yaşadək 200 uşağın təlim-tərbiyəsi ilə 46 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq.

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyətlər kimi yetişmələri istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Bu işlərə Heydər Əliyev Fondunun töhfəsi də olduqca əhəmiyyətlidir.



On bir saylı körpələr evi-uşaq bağçasının yerləşdiyi ərazidə və ətrafda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb. Burada balacaların istirahəti üçün oyun və idman avadanlığı da var. Bir sözlə, müəssisədə balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Binə qəsəbəsində "Ümid yeri" uşaq sığınacağının yeni binasının açılışında iştirak edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iyunun 13-də Bakının Xəzər rayonunun Binə qəsəbəsində "Ümid yeri" uşaq sığınacağının yeni inşa olunan binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Ümid yeri" uşaq sığınacağının köhnə binası müasir tələblərə cavab vermədiyindən Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunub.

Birinci vitse-prezident Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış olub. Müəssisənin rəhbəri Nigar Mənsimova "Ümid yeri" uşaq sığınacağının fəaliyyəti barədə Mehriban Əliyevaya məlumat verib.





Qeyd edilib ki, uşaq sığınacağı 1997-ci ildə təsis olunub. Burada 18 yaşınadək şəxslər məskunlaşır. Sığınacaqda qaldıqları müddətdə onlara hüquqi, mənəvi, sosial və tibbi yardımlar edilir, uşaqların cəmiyyətə adaptasiya olunmalarına və təhsil almalarına dəstək göstərilir.

Müəssisədə sığınacaq sakinlərinin zövqlərinin formalaşması, istedad və bacarıqlarının inkişafı məqsədilə müxtəlif sənət sahələri - xalçaçılıq, rəssamlıq, əl işləri üzrə emalatxanalar yaradılıb.

Uşaqların iştirakı ilə yaradılan "Keçə" rəsm əsəri Heydər Əliyev Fondunun prezidentinə hədiyyə edilib.

İkimərtəbəli müəssisənin binası 53 yerlikdir. Yeni bina oğlanlar, qızlar və kiçik yaşlı uşaqlar üçün bölmələrin yaradılmasına imkan verib. Bütün otaqlar müasir avadanlıqla təchiz edilib. Uşaq sığınacağında yataq, sinif otaqları, informatika kabinetləri, sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət və əyləncə zonaları, yeməkxana yaradılıb.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva uşaq sığınacağının sakinləri ilə görüşərək onlarla söhbət edib. On yaşlı Ömər Musayev yeni binada yaradılan şəraitin onların ürəyincə olduğunu söyləyib. Deyib ki, burada təhsil almaq, asudə vaxtlarını maraqlı keçirmək üçün bütün imkanlar var. O, görülən işlərə görə sığınacaq sakinlərinin adından Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib. Uşaqların arzuları ilə maraqlanan Heydər Əliyev Fondunun prezidenti sığınacaq sakinlərinin yanına yenə də qonaq gələcəyini deyib. Mehriban Əliyeva qeyd edib ki, indi bütün lazımi şəraitlə təmin olunan uşaqların əsas vəzifəsi yaxşı oxumaqdır. Müəssisənin balaca sakinləri Birinci vitse-prezidentə musiqiyə, rəsm çəkməyə həvəs göstərdiklərini söyləyiblər, mahnı ifa ediblər.

Heydər Əliyev Fondu uşaqlarla bağlı müxtəlif layihələr reallaşdırır. Xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını, müxtəlif humanitar aksiyaları fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Fond paytaxtdakı uşaq müəssisələrinin sakinləri üçün yaradılan şəraitin daha da yaxşılaşdırılması məqsədilə mühüm layihələrə imza atır. Bu istiqamətdə görülən işlərdən biri də "Ümid yeri" uşaq sığınacağı üçün yeni binanın inşasıdır.

Binanın həyəti abadlaşdırılıb, yaşıllıq zonası salınıb.

Birinci vitse-prezident Mehriban Əliyeva "Ümid yeri" uşaq sığınacağına fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 2 nömrəli Uşaq İncəsənət Məktəbindəki şəraitlə tanış olub



İyunun 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbindəki şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət naziri Əbülfəs Qarayev Birinci vitse-prezident Mehriban Əliyevaya məktəb haqqında məlumat verib.

Bildirilib ki, bu təhsil müəssisəsi 1940-cı ildə 1 nömrəli uşaq musiqi məktəbi kimi fəaliyyətə başlayıb. Məktəbə 1985-ci ildə Vaqif Mustafazadənin adı verilib. 1988-ci ildən isə 2 nömrəli uşaq incəsənət məktəbi kimi fəaliyyətini davam etdirib və burada əlavə şöbələr açılıb.

Qeyd edilib ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbini bir çox məşhurlar bitirib. Azərbaycanın Xalq artistləri Arif Məlikov, Aqşin Əlizadə, Oqtay Zülfüqarov, Oqtay Rəcəbov, Kamil Cəlilov, Ağaverdi Paşayev və Azərbaycanın mədəniyyətinə böyük töhfələr vermiş bir çox sənətkarlar bu məktəbdə təhsil alıblar.



Hazırda məktəbdə fortepiano, skripka, gitara, klarnet, saksofon, vokal, xanəndə, tar, kamança, qarmon, nağara, rəssamlıq, xoreoqrafiya ixtisasları, nəzəriyyə və tədris köməkçi fənləri ixtisası üzrə 385 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 78 müəllim məşğul olur.

Diqqətə çatdırılıb ki, Azərbaycanın Əməkdar artisti Vaqif Mustafazadə 1949-1956-cı illərdə məktəbin fortepiano şöbəsində təhsil alıb. Bu məktəbin şagirdləri müxtəlif respublika və beynəlxalq müsabiqələrdə, festivallarda uğurla iştirak edərək yüksək nəticələr əldə edirlər. Məktəbin yerləşdiyi bina indiyədək əsaslı təmir edilməyib.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verib.

# Milli Məclisin növbədənkənar sessiyası öz işinə başlayıb

*Sessiyanın ilk iclasında bir sıra qanunlara dəyişikliklər edilib*



İyunun 13-də Milli Məclisin növbədənkənar sessiyası öz işinə başlayıb. Parlamentin sədri Oqtay Əsədov iclası açıq elan edib. Sonra Azərbaycanın dövlət himni səsləndirilib. Oqtay Əsədov iyunun 13-də və 14-də keçiriləcək plenar iclasın gündəliyinə 36 məsələnin daxil olduğunu bildirib.

İclasda əvvəlcə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsini və "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Qeyd edilib ki, təklif edilən dəyişikliklər "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun və "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1336-VQD nömrəli Qanununun icrası ilə əlaqədardır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Parlamentin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə "Hesablama Palatası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirib ki, təklif olunan dəyişiklik "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununa uyğunlaşdırma məqsədi daşıyır. Qeyd olunan qanuna əsasən dövlət büdcəsi zərfinə daxil olan sənədlərin və məlumatların dairəsinin genişləndirilməsi nəzərdə tutulur ki, bu məlumatların biri də Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar barədədir. Bu isə azadolma və güzəştlərin həcmi, effektivliyi, onun məbləği barədə qiymətləndirmələrə imkan verəcək. Eyni zamanda, 8.0.13-cü maddənin ləğvi nəzərdə tutulur ki, bu da Hesablama Palatasının inzibati xətalar haqqında işlərə baxmaq və inzibati tənbeh tətbiq etmək üçün hüququnu aradan qaldırır. Sənəd üçüncü oxunuşda səsə qoyularaq təsdiqlənib.

İclasda, həmçinin "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Dövlət rüsumu haqqında", "Yol hərəkəti haqqında", "Milli arxiv fondu haqqında", "Avtomobil yolları haqqında" və "Mədəniyyət haqqında" qanunlarda, Əmək, İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələri üçüncü oxunuşda müzakirə olunaraq qəbul edilib.

Komitə sədri Ziyad Səmədzadə "Qiymətli kağızlar bazarı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, qanun layihəsi mərkəzi depozitarın xidmət haqlarının müəyyən edilməsi sahəsində qurumların səlahiyyətlərini dəqiqləşdirir. Təklif olunan qaydaya görə, bu haqlar mərkəzi depozitarın müşahidə şurasının təklifləri əsasında maliyyə bazarlarına nəzarət orqanı tərəfindən və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla müəyyən ediləcək. Qeyd edək ki, mərkəzi depozitar maliyyə bazarlarına nəzarət orqanının təsis etdiyi və depozitar sistemini idarə edən qeyri-kommersiya hüquqi şəxsdir. Qanun layihəsi səsvermə yolu ilə qəbul edilib.

Sonra "Banklar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Qeyd edilib ki, qanun layihəsi maliyyə bazarlarına nəzarət orqanına ödənilən haqların xarici bankların yerli filiallarına da şamil olunmasını nəzərdə tutur. Sənəd səsə qoyularaq təsdiqlənib.

Komitə sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, dəyişiklik maliyyə bazarlarına nəzarət orqanına haqların ödənilməməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tədbirinin tətbiq edilməsi məqsədilə təklif edilir. Maliyyə Bazarlarına Nəzarət Palatasına maliyyə bazarlarında nəzarət edilən subyektlər tərəfindən ödənilən haqların məbləği və ödənilmə qaydası həmin Palatanın 2017-ci il 5 aprel tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalar ilə müəyyən olunur. Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Qeyd olunub ki, qanun layihəsi dəqiqləşdirmə xarakteri daşıyır. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Bildirilib ki, dəyişiklik "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1433-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar təklif edilir. Qanun layihəsi səsvermə yolu isə təsdiq olunub.

İclasda "Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda müzakirə edilərək təsdiqlənib.

Komitə sədri Eldar İbrahimov "Aqrar sığorta haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, 4 fəsil 21 maddədən ibarət olan qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 27-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Komitə sədri Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini ikinci oxunuşda təqdim edib. Bildirib ki, təklif olunan dəyişikliklər "Aqrar sığorta haqqında" qanun layihəsinin icrası məqsədilə hazırlanıb. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Sonra Vergi və İnzibati Xətalar məcəllələrində, "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda müzakirə olunub. Diqqətə çatdırılıb ki, qanun layihələri "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda, həmçinin Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında", "Kredit ittifaqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda müzakirə olunaraq təsdiqlənib.

Komitə sədri Əli Hüseynli "Məhkəmələr və hakimlər haqqında" qanunda, Mülki Prosessual, Cinayət-Prosessual, İnzibati Prosessual məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələrini müzakirəyə təqdim edib. Bildirib ki, layihələr Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanın icrası ilə əlaqədar hazırlanıb. Belə ki, həmin Fərmanın 3.1-ci bəndi sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması barədə normativ hüquqi aktların layihələrinin hazırlanmasını nəzərdə tutur. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

**Nardar BAYRAMLI**

# Milli Məclisin deputatları "DOST" mərkəzi ilə tanış olublar





Milli Məclis Sədrinin müavini Bahar Muradova, parlamentin komitə sədrləri və deputatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyinin 1 saylı "DOST" mərkəzində olublar.






AZƏRTAC xəbər verir ki, mərkəzin fəaliyyəti, burada göstərilən xidmətlər, könüllülük proqramları barədə deputatlara ətraflı məlumatlar verilib. Qeyd edilib ki, ilk "DOST" mərkəzinin fəaliyyətə başladığı gündən ötən bir ay ərzində mərkəzə 8 minədək vətəndaş müraciət edərək, burada əmək, məşğulluq, əlillik, sosial təminat, sosial sığorta və s. üzrə xidmətlərdən faydalanıb. Göstərilən xidmətlərdən məmnunluq səviyyəsi də 100 faizə yaxındır. İlk "DOST" mərkəzində əmək, məşğulluq, sosial təminat, əlillik sahələri üzrə 126 növ xidmət göstərilir. 2019-2025-ci illərdə ölkədə 31 "DOST" mərkəzinin yaradılması nəzərdə tutulur, bu mərkəzlər ümumən 2,8 milyon vətəndaşa sosialyönümlü xidmətlər göstərəcək.

Milli Məclisin deputatları mərkəzdəki xidmət bölmələri ilə tanış olub, burada sosial agentlər, könüllülər tərəfindən vətəndaşlara xidmət göstərilməsi prosesini nəzərdən keçiriblər. Onlar "DOST" mərkəzində göstərilən xidmətlərlə bağlı məmnunluqlarını, xoş təəssüratlarını ifadə ediblər.

İclasda Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, ilk növbədə, iştirakçıları qarşıdan gələn Milli Qurtuluş Günü münasibətilə təbrik edərək vurğulayıb ki, 1993-cü il iyunun 15-də xalqın yekdil iradəsi ilə respublikamıza rəhbərliyə qayıdan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasi kursu, zəngin dövlətçilik təcrübəsi, yorulmaz fəaliyyəti həmin dövrdə Azərbaycanın müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişməsinə, bütün sahələri bürümüş dərin böhranın qarşısının alınmasına imkan verib.

Nazir müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafı, iqtisadiyyatın dirçəldilməsi, ölkədə güclü sosial siyasətin formalaşdırılması üçün Ulu Öndər Heydər Əliyevin göstərdiyi misilsiz xidmətləri diqqətə çatdırıb. O, müstəqil Azərbaycanın dinamik və uzunmüddətli inkişaf yolunun Milli Qurtuluş Günündən başlandığını, 2003-cü ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə möhtəşəm tarixi nailiyyətlərə imza atdığını, eyni zamanda, əhalinin rifah halının yüksəldilməsi istiqamətində mühüm addımların atıldığını vurğulayıb.

S.Babayev görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ilin noyabrında yaradılan YAP-ın müstəqil Azərbaycan dövlətinin qurulması və gücləndirilməsi, ölkəmizin inkişafı proseslərində xidmətlərindən bəhs edib. Nazir bildirib ki, YAP-ın Yasamal rayonu, S.Əsgərova 85 (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) ərazi ilk partiya təşkilatı da dövrün tələblərinə uyğun fəaliyyət göstərir. Təşkilat üzvlərinin sayı mütəmadi olaraq artmaqdadır. 2018-ci ilin aprelindən indiyədək nazirliyin 641 əməkdaşı ərizələri əsasında YAP-a üzv qəbul edilib. Hazırda nazirlik sistemində çalışanların 86,4 faizi YAP-ın üzvüdür. Ərazi ilk partiya təşkilatı bundan sonra da öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının cəmiyyətdə olan yüksək nüfuzuna uyğun şəkildə davam etdirəcək.

Milli Məclisin Sədr müavini Bahar Muradova, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, YAP Yasamal Rayon Təşkilatının sədri Tağı Əhmədov çıxış edərək Milli Qurtuluş Gününün müasir Azərbaycanın tarixində misilsiz uğurlarla zəngin şərəfli bir inkişaf mərhələsinin başlanğıcı olduğunu vurğulayıblar.

Daha sonra DOST Agentliyində 15 iyun - Milli Qurtuluş Günü ilə əlaqədar deputatların də iştirakı ilə Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayonu, S.Əsgərova 85 (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) ərazi ilk partiya təşkilatının iclası keçirilib.

Sonda DOST Agentliyinin 32 əməkdaşının YAP-a üzvlüklə bağlı ərizələri qəbul edilib.

# Bakıda ÜGT-nin İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi davam edir



Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi davam edir.

Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, iyunun 13-də konfransın "Gələcəyin yaşıl nəqliyyat və logistikasına sərhəd idarəçiliyinin münasibəti" adlı ikinci plenar sessiyasında malların sərhəddən sürətli və ekoloji cəhətdən təhlükəsiz keçirilməsi məqsədilə daşıyıcılara və logistik şirkətlərə dəstək üçün intellektual qurğuların köməyi ilə toplanmış məlumatların gömrük-sərhəd orqanları tərəfindən hansı səviyyədə istifadə edilməsi məsələsi müzakirə olunub.

Sessiyada çıxış edən Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ticarət zəncirinin iştirakçıları ilə bağlı məsələyə toxunub. Qeyd edib ki, gömrük xidməti gələcəkdə həm ticarətin asanlaşdırılması, həm də risklərin idarə olunması prizmasından yanaşaraq, həmçinin ekoloji tarazlığı qorumaqla blokçeyn texnologiyasının istifadəsini təşviq etməlidir.

DGK sədri vurğulayıb ki, blokçeyn texnologiyasına üstünlük verən standartlar müəyyənləşdirilməli, ticarətin asanlaşdırılması və ticarət zəncirinin təhlükəsizliyi təmin edilməli, xüsusilə də ekoloji tarazlıqla bağlı problemlər aradan qaldırılmalıdır.

S.Mehdiyev diqqətə çatdırıb ki, bəzi dövlətlərdə blokçeyn texnologiyasından müxtəlif məqsədlər üçün istifadə edilir. Məsələn, qaçaqmalçılığın qarşısının alınması, məlumatların öncədən verilməsi, vergi toplanması məqsədilə bu texnologiyaya üstünlük verilir. Blokçeyn texnologiyasının inkişafı ilə bağlı layihələrə həm Avropa Yenidənqurma və İnkişaf Bankı, həm də digər maliyyə institutları dəstək verməlidir.

**"Biz pilot layihə olaraq bu texnologiyadan istifadəni bir neçə dövlətlə birlikdə həyata keçirməyi planlaşdırırıq. Bu üstünlükləri sahibkarlar görməli və onları blokçeyn texnologiyasından istifadəyə təşviq etməliyik",** - deyə o bildirib.

Komitə sədri deyib ki, bu istiqamətdə inkişafa gətirib çıxaracaq yeganə metodlardan biri ticarət zəncirinin bütün iştirakçılarının həmin sahəyə cəlb edilməsini təşviq edəcək normaların müəyyənləşdirilməsidir.

Niderland Gömrük Xidmətinin Ticarət Əlaqələri Departamentinin rəhbəri Frank Heijman isə çıxışında ticarət şərtlərinin asanlaşdırılması məsələsinə toxunub. Bildirib ki, ticarət şərtlərinin asanlaşdırılması üçün dövlət bu sahəyə vəsait yatırır və "bir pəncərə" sistemini formalaşdırır. "Bir pəncərə" ilə bağlı özəl sektor fəal olmalı və öz mövqeyini nümayiş etdirməlidir.

O qeyd edib ki, blokçeyn texnologiyasından istifadə zamanı bilməliyik ki, məlumatlar paylaşılarkən necə ötürülür. Konfrans çərçivəsində bu texnologiyanın təfərrüatları incələnməli, birlikdə təhlil edilməlidir.

Sloveniya Logistik Assosiasiyasının prezidenti İqor Zula çıxışında logistika məsələlərinin müxtəlif aspektlərini təhlil edib. Qeyd edib ki, biznes prosesləri logistik baxımdan daha da optimallaşdırılmalıdır.

İ.Zula "yaşıl logistika" haqqında da danışıb, təchizat zəncirində aparılan proseslə bağlı geniş məlumat verib. Tövsiyə edib ki, müsbət nailiyyətlərə nail olmaq üçün daha az məsafələr qət olunmalı, daha ağıllı texnologiyalar tətbiq edilməlidir.

Avropa Yenidənqurma və İnkişaf Bankının Dayanıqlı nəqliyyat üzrə əsas sektorunun rəhbəri xanım Tara Şirvani isə çıxışında qurumun həyata keçirdiyi layihələrdən və investisiyalardan bəhs edib. Blokçeyn texnologiyasından istifadəni dəstəklədiyini bildirən T.Şirvani bu sahədə risklərin də nəzərə alınmasının tərəfdarı olduğunu söyləyib. Qeyd edib ki, blokçeyn texnologiyasından istifadə zamanı əlavə enerjiyə tələbat yaranacaq və bu tələbatın təbii yollarla əldə edilməsi mümkündür.

Daha sonra konfrans işini panel sessiyalarla davam etdirib. Sessiyalarda "Qoşulmuş qurğularla bağlı maneələrin aradan qaldırılması və əşyaların internetindən istifadə edilməsi", "Texnologiyaların tam potensialını ortaya çıxarmaq üçün maşınların öyrənmə potensialının, mərkəzləşdirilmiş Qeyri-İntruziv Yoxlama təsvirlərinin şərhinin və insan bacarıqlarının araşdırılması" mövzuları ətrafında müzakirələr aparılıb.

# Sofiyada Dünya Xəbər Agentliklərinin VI Konqresinə hazırlıq üzrə son Şura iclası olub

İyunun 13-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində "Xəbərlərin gələcəyi" devizi altında keçiriləcək Dünya Xəbər Agentliklərinin VI Konqresinə hazırlıq üzrə son Şura iclası olub.

İclasda Azərbaycanın AZƏRTAC, Böyük Britaniyanın Press Association, Rusiyanın TASS, Səudiyyə Ərəbistanının SPA, ABŞ-ın Associated Press, Küveytin KUNA, İspaniyanın EFE və digər üzv agentliklərin rəhbərləri və nümayəndələri iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, Şura iclasında Dünya Xəbər Agentlikləri Konqresinin növbəti prezidentinin seçilməsi və VII Konqresin keçiriləcəyi ölkə barədə ətraflı müzakirələr aparılıb. Şura üzvləri Konqresin prezidentliyinə bir neçə namizəd olduğuna görə bu iclasda yekun qərara gələ bilməyiblər, növbəti dəfə - cari il dekabrın 2-də Londonda yenidən görüşmək və məsələləri bir daha müzakirə etmək barədə razılığa gəliblər.

Şura iclasında, həmçinin VI Konqresin gündəliyi müzakirə olunub, müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Əli Əhmədov: Milli Qurtuluş Günü müasir Azərbaycan tarixinin dönüş nöqtəsidir

## *YAP Gənclər Birliyinin təşəbbüsü ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib*

İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin təşəbbüsü ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri Riyad Rüstəmli 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışıb. O bildirib ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 15 iyun 1993-cü il onu dərk edənlər üçün çox əzizdir: **"Vətənini, xalqını sevən, həmin çətin günləri öz gözləri ilə görən insanlar üçün 15 iyun tarixi əsl qurtuluşdur və Azərbaycanın ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Ümummilli Lider Heydər Əliyevdir. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son**










**qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikamızın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, ictimai-siyasi sabitlik təmin edildi. Eləcə də ölkənin sosial-iqtisadi, elmi və mədəni həyatında əsaslı dönüş başladı. Xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi. Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir"**.

Sonra YAP Gənclər Birliyinin 15 İyun - Milli Qurtuluş Günü münasibətilə hazırladığı video-çarx nümayiş etdirilib.





Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Əli Əhmədov bildirib ki, Milli Qurtuluş Günü müasir Azərbaycan tarixinin dönüş nöqtəsidir. Onun sözlərinə görə, Azərbaycanın müasir tarixini Milli Qurtuluş Günündən və bu günə səbəb olan Ümummilli Liderimiz Heydər Əliyevin möhtəşəm qayıdışından ayrı təsəvvür etmək mümkün deyil: **"Şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin möhtəşəm qayıdışı olmasaydı və milli qurtuluşumuz baş tutmasaydı, tamam fərqli bir Azərbaycanda yaşamağa məhkum olardıq. O Azərbaycan indi bizim üçün dəyərli olan, bizim hər birimizin qürur duyduğumuz Azərbaycandan fərqlənmiş olacaqdı. Ona görə də biz tam məsuliyyətlə Azərbaycanın müasir tarixinin iki fundamental əsasını qeyd edə bilərik. Bunun biri Azərbaycanın öz dövlət müstəqilliyini yenidən bərpa etməsidirsə, ikincisi Ümummilli Lider Heydər Əliyevin tarixi qayıdışı və Onun Azərbaycana bəxş etdiyi Milli Qurtuluş Günüdür"**.

Əli Əhmədov deyib ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalqımız nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Baş nazirin müavini bildirib ki, 1993-cü ilin 15 iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan tarixində yeni mərhələ başlandı: **"İnsanları narahat edən, xalqı vahiməyə salan bütün proseslər dəf edildi, xaos, anarxiya, özbaşınalıq aradan qaldırıldı. O zaman Azərbaycanın parçalanması təhlükəsini yaratmış separatizm ləğv edildi, Ermənistanın torpaqlarımızın işğalını davam etdirməsinin qarşısı alındı. Ən başlıcası isə, ölkə siyasi və iqtisadi böhrandan çıxa bildi, hakimiyyət böhranı da aradan qaldırıldı. İnsanların çörək növbələrinə durması kimi dəhşətli mənzərə qısa müddətdə həll edildi və beləliklə Azərbaycanda, sözün həqiqi mənasında, normal həyat təmin edilmiş oldu. Azərbaycanın müstəqilliyi möhkəm və etibarlı bünövrə üzərində qoyuldu və Azərbaycanda dərin Heydər Əliyev islahatları həyata keçirilməyə başlandı"**.

YAP Sədrinin müavini qeyd edib ki, xalqımız tərəfindən 15 İyun - Milli Qurtuluş Günü müasir tariximizin ən önəmli hadisəsi kimi qeyd edilir, dəyərləndirilir. Bu, onunla əlaqədardır ki, insanlar bugünkü həyatlarını, ölkəmizin bugünkü firavanlığını və gələcəklə bağlı aydın görünən perspektivlərini Milli Qurtuluş Günü ilə, Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirirlər. Çünki Azərbaycanın müasir tarixində, hər bir vətəndaşın həyatında baş verən müsbət dəyişikliklər, ilk növbədə, Heydər Əliyevin möhtəşəm qayıdışı və bu qayıdışın yaratdığı Qurtuluş məfkurəsi ilə birbaşa bağlıdır. Əli Əhmədov deyib ki, qurtuluş və Heydər Əliyevin möhtəşəm qayıdışı Azərbaycan xalqının istəyinin və iradəsinin ifadəsi kimi qəbul olunur: **"Ölkəmizin tarixinin ən həssas dövründə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın mövcudluğunun, müstəqilliyinin və gələcək inkişafının yeganə və həlledici səbəbi kimi qavranılır. Bu gün o dövrə qayıdarkən və Azərbaycanın indiki reallıqlarını göz önünə gətirib müqayisə apararkən Heydər Əliyevin möhtəşəm qayıdışının Azərbaycanın müasir tarixində və hər bir vətəndaşın həyatında nə qədər önəmli bir hadisə olduğunu dəyərləndirmək çətin olmaz. Heydər Əliyevin tarixi qayıdışı Azərbaycanın müstəqilliyinin xilası idi. Bu qayıdışın əsasını Qurtuluş məfkurəsi təşkil edir. Qurtuluşun digər mənası Azərbaycanın siyasi təlatümlərdən xilas edilməsi ilə bağlıdır. O dövrü xatırlayanlar bunun nə demək olduğunu aydın şəkildə təsəvvür edirlər. Qurtuluş, eyni zamanda, iqtisadi tənəzzülün qarşısını aldı. Bu da Heydər Əliyevin böyük qayıdışını əks etdirən çox vacib məqamlardan biridir. Eyni zamanda, bir məqam da odur ki, qurtuluş Azərbaycanı o zaman düçar olduğu beynəlxalq təcriddən xilas etdi. Ümumiləşmə apararaq demək olar ki, Qurtuluş məfkurəsi Azərbaycanın mənəvi böhrandan, mənəvi aşınmadan xilas olması mənasını daşıyır. Heydər Əliyevin hakimiyyətə qayıdışı, əslində, Azərbaycanı bütün istiqamətlər üzrə bürümüş böhrandan xilas etdi. Bu, Heydər Əliyevin xilaskarlıq missiyasını özündə ehtiva edirdi. 1990-cı illərin əvvəlində Azərbaycan təlatümlü anlarını yaşayanda xalqın qəlbində əsas kök salan istəklər hər şeydən əvvəl Azərbaycanın məhv olmaqdan xilas olunması ilə bağlı idi. Bu xilası da Ümummilli Lider Heydər Əliyevin adı ilə əlaqələndirirdilər. Heydər Əliyevin atdığı qətiyyətli addımlar insanların bu gözləntilərini tamamilə doğrultdu"**.

Müstəqilliyin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran Əli Əhmədov Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. Baş nazirin müavini qeyd edib ki, Ulu Öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub.

Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan Əli Əhmədov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb. Milli qurtuluşun Azərbaycanın müasir tarixində böyük bir dövrü əhatə etdiyini deyən Baş nazirin müavini bildirib ki, Azərbaycan dünyanın gənc dövlətləri arasında ən uğurlu ölkədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatının dəfələrlə artması, əhalinin rifah halının xeyli yaxşılaşması bu inkişafın əsas göstəriciləridir. **"Qurtuluşdan başlanan tarixi yol bu gün də davam etdirilir. Ölkəmizin bugünkü tərəqqisi, Prezident İlham Əliyevin siyasəti qurtuluşdan qaynaqlanır və ondan güc alır. Qurtuluşdan danışarkən bugünkü reallıqları göz önünə gətirmək kifayət edir ki, ölkəmiz nə qədər nailiyyətlər qazanıb. Beləliklə, qurtuluş qısa müddətdə ölkəmizin böyük inkişaf mərhələsinin əsası olub və bundan sonrakı dövr üçün də etibarlı əsaslar yaradıb",** - deyə YAP Sədrinin müavini qeyd edib.

Əli Əhmədov bildirib ki, bu gün Prezidentin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti məhz ölkəmizin daha da güclənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir: **"İnanırıq ki, Qurtuluş məfkurəsi öz möcüzəsini bir dəfə göstərdiyi kimi, bundan sonra da göstərəcək. Qurtuluş elə bir sönməyən enerjidir ki, uzun dövrlər Azərbaycan xalqına xidmət edəcək. İnanırıq ki, illər ötdükcə Qurtuluş məfkurəsinin bizə verdiyi faydalar daha da artacaq və qurtuluşun növbəti ildönümlərini daha böyük uğurlarla qeyd edəcəyik"**.

Onun sözlərinə görə, bu gün Azərbaycan ən güclü, ən müasir dövlətlər içərisində özünə layiqli yer tutur: **"İnsanlar özlərini xoşbəxt hesab edirlər ki, müstəqil Azərbaycanın vətəndaşlarıdır. Bütün bu uğurlar, nailiyyətlər 26 il bundan əvvəl Ulu Öndər Heydər Əliyevin Azərbaycana dönüşünün nəticəsidir. Heydər Əliyev siyasəti bu gün də uğurla həyata keçirilir"**.

YAP Sədrinin müavini söyləyib ki, Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə, maliyyə imkanları artdıqca hökumət tərəfindən əhalinin rifahının daha da yüksəlməsi istiqamətində addımlar atılacaq, proqramlar reallaşdırılacaq. Onun sözlərinə görə, Prezident İlham Əliyev Öz çıxışlarında bu fikirləri dəfələrlə bəyan edib.

Əli Əhmədov qeyd edib ki, 1992-93-cü illərdə hakimiyyətdə olan və Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoyan qüvvələr bu gün ölkəmiz haqqında əsassız fikirlər söyləyir, sosial şəbəkələrdə yanlış məlumatlar yayırlar. **"Hansı ki, onların hakimiyyəti dövründə ölkədə inflyasiya 1600 faizi ötmüşdü, siyasi böhran, xaos, anarxiya getdikcə dərinləşirdi. Həmin insanların bu gün Azərbaycanın inkişafına, uğurlarına qarşı fikirlərinin heç bir əsası yoxdur. Gənclərimiz onların yalanlarına qarşı mübarizəni davam etdirməli, yalanlarını ifşa etməlidirlər"**.

YAP Sədrinin müavini gənclərə uğurlar arzulayıb və əminliklə bildirib ki, 15 İyun - Milli Qurtuluş Günü növbəti illərdə ölkəmizin daha böyük uğurları ilə qeyd olunacaq.

Tədbirdə, həmçinin YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin sədri Fərəh Məcidzadə, YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri Salman Salmanov, YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin sədri Nərminə Yunusova və YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədri İlqar Quliyev çıxış edərək 15 İyun - Milli Qurtuluş Gününün əhəmiyyətindən, Azərbaycan dövlətinin gənclərə qayğısından danışıblar.

Qeyd olunub ki, Azərbaycanın milli qurtuluşdan başlanan inkişaf və tərəqqisi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün Azərbaycan vətəndaşları, o cümlədən gənclər müstəqil Azərbaycanın daha da inkişafı və güclənməsi üçün dövlət başçısının ətrafında sıx birləşiblər. Bildirilib ki, müasir Azərbaycan gəncliyi də Qurtuluş məfkurəsinin bəhrəsidir. Əgər qurtuluş olmasaydı, bugünkü xoşbəxt Azərbaycan gəncliyindən söhbət gedə bilməzdi. Biz özümüzü xoşbəxt hesab edirik ki, güclü Azərbaycan dövlətində yaşayırıq. Dövlətimiz gəncliyin inkişafı üçün bütün imkanları yaradıb. Öz növbəsində, gənclərimiz də müstəqil dövlətimizi qorumalı, Azərbaycanı gözü götürməyən qüvvələrə tutarlı cavab verməlidir. Sevindirici haldır ki, Azərbaycanda məhz belə bir vətənpərvər, intellektual gənclik formalaşıb.

**Nardar BAYRAMLI**









# Qurtuluşun fəlsəfəsi



**Siyavuş Novruzov,**
**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini**

Yalnız yüksək amallara xidmət edən cahanşümul bir ideya, qloballaşan dünyada gedən proseslərin obyektiv dərkinə əsaslanan hərtərəfli işlənib hazırlanmış elmi konsepsiya bu gün haqqında hər birimizin böyük qürur hissi ilə danışdığımız müstəqil, dinamik inkişaf edən Azərbaycan reallığını ərsəyə gətirə bilərdi. Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab oluna bilər. 15 İyun - Milli Qurtuluş Gününün yaranma fəlsəfəsi də məhz yuxarıda qeyd etdiyimiz ali və uca missiyaya xidmət edən bir ideologiya ilə silahlanmış qüdrətli rəhbərin düşüncə və fəaliyyəti prizmasında dəyərləndirilməlidir.

Ümummilli Lider Heydər Əliyevin vaxtilə söylədiyi **"Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm"** deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ona görə ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, lakin əsl milli dəyər mahiyyətini bugünkü uğurlarımızda daha real dərk etdiyi müstəqillik idealında cəmiyyətimizin qarşılaşdığı məşəqqət, faciəli anlar ağrılı günlər öz izini qoymuşdur. Ulu Öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə Onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

Ulu Öndər Özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı Özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük. Məhz bu məqamda, istər sovet imperiyasının ağır repressiya maşınının tam gücü ilə işlədiyi dövrdə, istərsə nisbi sabitlik və sülhün hakim olduğu vaxtlarda və nəhayət, yeni ictimai-siyasi, iqtisadi epoxa ilə şərtlənən mürəkkəb müstəqillik illərində doğma xalqına xidmətin ən müxtəlif forma və metodlarını müəyyənləşdirən, tapıb üzə çıxaran Heydər Əliyev Özünün zamana qalib gələn qüdrətli şəxsiyyəti ilə tarix səhnəsində olduqca əzəmətli görünür.

Azərbaycanın 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixinin otuz dörd illik bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, Vətəndaş, Şəxsiyyət, Lider kimi bütün bu illərdə Azərbaycanın məsuliyyətini Öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz Onun adı ilə əlaqədardır.

Məlum olduğu kimi, insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası bu gün dünyada ictimai inkişaf prosesinə istiqamət verən mühüm ideyalardan biridir. İnsan hüquqları ciddi elmi araşdırmaların predmetinə, daxili siyasətlə bağlı qızğın müzakirə və mübahisələrin mövzusuna, əksər ölkələrin konstitusiyasının ana xəttinə, sülh və əməkdaşlıq haqqında beynəlxalq sazişlərin başlıca məğzinə çevrilmişdir. Dünyanın əksər ölkələrində insan haqları insanın mövcudluğunun və milli inkişafın ən vacib şərti kimi qəbul olunur. Bununla yanaşı, insan hüquqları ideyasının həyata keçirilməsi hələ də bir çox anlaşılmazlıqların, ziddiyyətlərin, ölkədaxili və beynəlxalq gərginliklərin mənbəyi olaraq qalır.

Bütün digər sahələrdə olduğu kimi, Azərbaycanda da insan hüquqları sahəsində islahatların aparılması, zəruri hüquqi bazanın və institusional əsasların formalaşması məhz Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra baş vermişdir. Ən əsası isə, Ulu Öndər dövlətçiliyimizi təhdid edən təhlükəli tendensiyaları aradan qaldırdıqdan, müstəqil Azərbaycanın ideoloji-iqtisadi əsaslarını (Azərbaycançılıq ideologiyası və "Əsrin müqaviləsi") möhkəmləndirdikdən az sonra müəllifi olduğu 1995-ci il Konstitusiyasında insan hüquq və azadlıqlarını təsbit etdi və hüquqi təminat altına aldı. Beləliklə, olduqca qısa zaman kəsiyində müdrik rəhbərimizin dəmir məntiqi, silinməz dəst-xəttinin, zəngin həyat təcrübəsi və işıqlı zəkasının ən böyük əsəri olan, dünya standartlarının tələblərinə tam dolğunluğu ilə cavab verən konstitusiya layihəsi hazırlanaraq ümumxalq səsverməsinə təqdim olundu. Həmin sənəd 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olundu. Bu gün Əsas qanunu iftixar hissi ilə xalqımız haqlı olaraq "Heydər Əliyev Konstitusiyası" adlandırır, eyni zamanda, onu Heydər Əliyevin siyasi yaradıcılığının şah əsəri hesab edir. Bu, xalqın rəhbərinə olan sonsuz və ülvi məhəbbətin ifadəsi, Konstitusiyanın hazırlanmasında, müzakirəsində və qəbul edilməsində yorulmaz fəaliyyətinə verdiyi halal qiymətdir.

Siyasi sistem özündə müxtəlif profilli komponentləri cəmləşdirən çoxfunksiyalı strukturdur və bu sistemin hər bir komponenti özünün xüsusi strukturuna və ifadə xüsusiyyətlərinə malikdir. Belə çoxfunksiyalı strukturu təşkil edən ayrı-ayrı komponentlərin (institusional, funksional, requlyativ, kommunikativ, ideoloji profilli komponentlər) formalaşmasında Heydər Əliyev fenomeninin rolunu bir məqalə çərçivəsində şərh etmək çox çətindir. Lakin danılmaz həqiqətdir ki, Azərbaycanda siyasi sistemin təşəkkül tapmasında məhz Onun müstəsna xidməti vardır. Belə ki, Onun 30 ildən artıq bir müddətdə Azərbaycanda siyasi hakimiyyətin başında olması faktının özü çağdaş Azərbaycanın siyasi sisteminin formalaşmasında Heydər Əliyev fenomeninin hansı rola malik olmasını aydın şəkildə göstərir. Çünki məhz siyasi hakimiyyət siyasi sistemin elementlərinin təmərküzləşməsi və formalaşması baxımından ən vacib amildir. Siyasi sistemdə cəmiyyətin həyatının bütün yönləri - cəmiyyətin mövcudluğunun iqtisadi şərtləri, cəmiyyətin sosial və milli strukturu, ictimai şüurun vəziyyəti və səviyyəsi, mədəniyyət və s. - öz əksini tapır. Məhz siyasi sistem vasitəsilə cəmiyyətin əsas maraqları, sosial prioritetlər müəyyənləşdirilir ki, sonralar onlar siyasətdə möhkəmlənir.

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. İnkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmayaraq, qlobal proseslər dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır. Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi daxili və xarici siyasət bugünkü qlobal reallığın və fundamental tendensiyaların mükəmməl dərkinə əsaslanır və hazırkı planetar miqyaslı konyunktur dəyişikliklərə tamamilə cavab verir.

Müasir dövrdə ictimai həyatın bütün sahələri kimi, mədəniyyətlər də getdikcə qloballaşmaya məruz qalır, fərqli sivilizasiyaların Hantinqtonun deyimi ilə, sadəcə, "qarşıdurması" deyil, həm də inteqrasiyası baş verir. Bu prosesdən təcrid olunmaq, öz milli məhdudluğuna qapanıb qalmaq qeyri-mümkündür. Qloballaşmanın gedişi, təbii ki, sivilizasiyaların taleyindən yan keçə bilməz. Belə ki, qloballaşan sosio-mədəni məkanda ölkələrin və sivilizasiyaların qarşılıqlı asılılığı daha da artır, miqrasiya prosesinin genişlənməsi ilə onların bir-birinə yaxınlaşması daha da intensiv səciyyə daşımağa başlayır, digər tərəfdən isə, xalqların sivilizasion özünüdərki prosesi geniş vüsət alır, milli və dini zəmində ziddiyyətlər ortaya çıxır. Təbii ki, belə bir ortamda hər bir sivil dövlət qloballaşmanın ortaya çıxardığı ziddiyyətlərdən və fəsadlardan qaçaraq, bu axını xalqların iqtisadi, mədəni həyatının inkişafı üçün bir üstünlüyə çevirməlidir. Məhz bu amili nəzərə alaraq Ulu Öndər Heydər Əliyev uzaqgörənliklə demişdir ki, **"Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Bu zəruri axın dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir".** Beləliklə, Ümummilli Liderin Azərbaycan dövlətçiliyinin təməlinə yerləşdirdiyi azərbaycançılıq ideologiyasının birləşdirici və ehtivaedici xarakterinin aktuallığı günümüzdə daha artıq önəm və əhəmiyyət qazanır.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur. Bu baxımdan əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən multikulturalizmin Azərbaycan modeli sınanmış və optimal variant kimi qarşımıza çıxır.

Ulu Öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. **"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq"** deyən Ulu Öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Azərbaycanın ən yeni tarixi şəxsiyyətin və liderin ictimai-dövlət həyatındakı rolunun əsrlər dəyişdikcə nəinki azalmadığı, hətta effektiv çalarlar qazanaraq praqmatik məzmun və mahiyyət kəsb etdiyini bir daha təsdiqləyir. Təbii ki, politoloji anlamda lider dediyimiz şəxs tarixi inkişafın obyektiv qanunauyğunluqlarını dərindən dərk edən, cəmiyyətin dinamik güclərini vahid ideya ətrafında səfərbər edərək, addım-addım hədəfə çatmağı bacaran, strateji və proqressiv düşüncə tərzinə malik rəhbər modelini ehtiva edir. Belə rəhbərin fəaliyyəti möhkəm sosial-iqtisadi və ideoloji bazaya, elektoratın sonsuz inamına söykənən bir sistemə malikdirsə və bütün bu komponentlərin məcmusu yeni və qüdrətli liderə transformasiya edirsə, daha əzəmətli və uzunömürlü olur. Ümummilli Liderimiz Heydər Əliyevin layiqli varisi, möhtərəm Prezidentimiz İlham Əliyevin timsalında xalqımız öz taleyində məhz belə uğurlu fenomenə şahidlik etməkdədir.

Əsrimizin ilk prezident seçkilərində xalqımızın iradəsinə arxalanan, siyasətini milli maraqlarımızın tam təmin olunması üzərində quran, Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dinamik inkişaf strategiyasını rəhbər tutan və regionda çox böyük nüfuza malik olan İlham Əliyevin dövlətimizin başçısı seçilməsi ilə müasir tariximizdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulub. Bütün sahələrdə köklü dəyişikliklərlə, xalqın rifah halının daim yaxşılaşdırılması, Azərbaycanın dünyadakı rolunun yüksəlməsi ilə müşayiət olunan bu mərhələ daxili və xarici siyasi kursumuzda möhtəşəm uğurlarla, nəhəng abadlıq və quruculuq işləri və dünyada bənzəri olmayan sıçrayışlı iqtisadi inkişafla tariximizə qızıl hərflərlə yazılmaqdadır.

# Eldar İbrahimov: Bu, sadəcə, təqvim bayramı deyil, böyük tarixi əhəmiyyətə malik gündür



***1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycanda qısa müddət sonra dərin böhran yaşanıb. 1992-ci ildə güc yolu ilə siyasi hakimiyyəti ələ keçirən AXC-"Müsavat" iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən silahlı dəstələrin yol verdikləri başıpozuq fəaliyyət, ölkənin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanı bir dövlət kimi varlığına son qoyulması ilə üzləşdirib. Belə bir mürəkkəb zamanda - 1993-cü il iyunun 9-da Azərbaycan xalqının təkidi ilə Ulu Öndər Heydər Əliyev Bakıya dəvət olunub və ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi istiqamətində tarixi missiyasını həyata keçirib. 1993-cü il iyunun 15-də isə Ulu Öndər Heydər Əliyev Milli Məclisin Sədri seçilib. Həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil olub. O illərin ictimai-siyasi prosesləri, Ulu Öndər Heydər Əliyevin Naxçıvanda fəaliyyəti, Bakıya gəlişi, Azərbaycanın hərtərəfli inkişafı yönündə gördüyü işlərlə bağlı "Kaspi" qəzetinin suallarını Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov cavablandırıb. Həmin müsahibəni təqdim edirik:***

**- Eldar müəllim, 15 İyun - Milli Qurtuluş Gününün Azərbaycan tarixindəki yerini necə dəyərləndirirsiniz?**

- Müstəqilliyin ilk illərində Azərbaycanda olduqca gərgin vəziyyət var idi. Bu gərginliyi hər bir vətəndaş görür, müşahidə edirdi. Bir deputat kimi, mən də istər-istəməz ölkədə baş verən ictimai-siyasi proseslərin içində idim. Ulu Öndər Heydər Əliyevlə yanaşı, mən də o zamankı Ali Sovetə, indiki Milli Məclisə Naxçıvandan deputat seçilmişdim. Bu çərçivədə Ulu Öndərlə tez-tez söhbətlərimiz olurdu, Onun fikirlərini özümdə qeyd edirdim, gələcəkdə özümə lazım olacağını düşünürdüm. Heydər Əliyev uzaqgörən siyasətçi olmaqla bərabər, nə qədər yaxşı işçi idisə, bir o qədər də yaxşı insan idi. O hətta Naxçıvanın çətin illərində də çalışırdı ki, hər kəsə yaxşılıq etsin. Müstəqilliyimizin ilk illəri Azərbaycan xalqı üçün çox ağır dövr idi. O dövrdə vəziyyəti bir qədər də mürəkkəbləşdirən amil yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət verməyi, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsi idi. Məhz bu kimi səbəblərdən 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərcmərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Belə bir gərgin və böhranlı vəziyyətdə xalq ümidini böyük oğlu Heydər Əliyevə bağlamışdı. Ona görə də hələ 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Ulu Öndərə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. 4 iyun 1993-cü ildə Gəncədə baş verən hadisələr, vəziyyətin silahlı qarşıdurma səviyyəsinə çatdırılması isə onsuz da ölkədə mövcud olan mürəkkəb vəziyyəti bir qədər də ağırlaşdırmışdı. Azərbaycan vətəndaş müharibəsinin astanasında dayanmış, müstəqilliyini yenidən itirmək təhlükəsi ilə üzləşmişdi. Belə bir məqamda yalnız bir çıxış yolu var idi. Bu çıxış yolu görkəmli siyasi və dövlət xadimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatçılıq keçirən ziyalılar Ulu Öndərə müraciət etdilər. Əlbəttə ki, sağlam düşüncəli insanlar, ziyalılar AXC-"Müsavat" hakimiyyətinin Azərbaycanı uçuruma apardığını görürdülər. Ona görə də onlar haqlı olaraq hesab edirdilər ki, bu vəziyyətdən xalqı yalnız Heydər Əliyev kimi lider xilas edə bilər. Bu müraciətləri nəzərə alaraq Azərbaycan xalqının böyük oğlu 1993-cü il iyunun 9-da Bakıya döndü. Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olduğuna inamı artırdı. Bakıya qayıdan Heydər Əliyev hadisələri araşdırmaq, baş verənlərlə yerindəcə tanış olmaq məqsədilə Gəncəyə yollandı. Bir məqamı xüsusi vurğulamaq istərdim ki, həmin vaxtlar vəziyyət çox mürəkkəb və təhlükəli idi. Hətta Heydər Əliyev Gəncəyə gedərkən, yolda avtomobili təhlükəsizlik məqsədilə dəyişmişdi. Yəni Ulu Öndər Azərbaycanın bütövlüyü, gələcəyi naminə Öz həyatını riskə ataraq işləyirdi. Gəncədə apardığı danışıqlar nəticəsində silahsız, qan axıdılmadan məsələ həllini tapdı. Bununla da Azərbaycanı fəlakətə sürükləyə biləcək vətəndaş müharibəsinin qarşısı alındı. Ardınca O, digər təxirəsalınmaz tədbirlər həyata keçirdi. Bütün bunları görən, dəyərləndirən xalqımız Ona etimad göstərdi və Heydər Əliyev 1993-cü il iyunun 15-də Milli Məclisin Sədri seçildi. Ulu Öndərin Azərbaycan parlamentinin Sədri seçildiyi gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. 15 İyun olmasa idi, nə Azərbaycan, nə də müstəqil dövlət olmayacaqdı. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı. Bu baxımdan 15 İyun - Milli Qurtuluş Günü, sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 İyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan Heydər Əliyevdir.

**- Sizin də xatırlatdığınız kimi, Ulu Öndər Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlməzdən öncə Naxçıvanda yaşayıb, orada Ali Məclisin Sədri olub. Ulu Öndərin Naxçıvanda olduğu illərdə orada ictimai-siyasi vəziyyət necə idi?**

- Ötən əsrin 90-cı illərinin əvvəlində bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da hakimiyyət boşluğu hökm sürürdü. Muxtar Respublikada Ali Məclisin sədri seçilməli idi. "Demblok", "komblok" deyilən qüvvələr və bu qəbildən olan digərləri Naxçıvanda, necə deyərlər, öz adamlarını hakimiyyətə gətirmək üçün müxtəlif vasitələrə əl atırdılar. Belə gərgin vəziyyətdə muxtar respublikanın gələcəyini düşünən insanlar Ali Məclisin sədri vəzifəsinə böyük idarəçilik təcrübəsi olan Heydər Əliyevin seçilməsini tələb edirdilər. Mən Ali Məclisin sessiyasında iştirak edən bir şəxs kimi bildirmək istəyirəm ki, Ulu Öndər həmin vəzifəyə getmək istəmirdi. Mən və digərləri sessiyada çıxış edərək mövqeyimizi qəti şəkildə ortaya qoyduq, bildirdik ki, Heydər Əliyevin Naxçıvanda alternativi yoxdur, əgər O, muxtar respublikanın rəhbəri seçilməsə, ermənilər Naxçıvana təcavüz edəcəklər. Sessiyada Heydər Əliyevin namizədliyini müdafiə edənlərə, o cümlədən də mənə qarşı kəskin təzyiqlər göstərilsə də, biz 1991-ci il 3 sentyabr tarixində Ulu Öndərin Naxçıvan Ali Məclisinin Sədri seçilməsinə nail olduq. Ulu Öndər Heydər Əliyev 3 sentyabr 1991-ci il tarixində Naxçıvanda rəhbərliyə gəlməsə idi, hadisələrin gedişi müxtəlif cür ola bilərdi. Ulu Öndər Ali Məclisin Sədri kimi Naxçıvanda çox böyük işlər gördü. Açıq deyək, həmin dövrdə Naxçıvanı yalnız Ermənistan blokadaya almamışdı. Elə Azərbaycanda da mərkəzi hakimiyyət də muxtar respublikaya son dərəcə biganə münasibət bəsləyirdi. Çətin durumda olan Naxçıvana heç bir kömək göstərilmirdi, mərkəzi icra orqanlarının təmsilçiləri muxtar respublikanın problemləri ilə əsla maraqlanmırdılar, ora ayaq basmaq belə istəmirdilər. Elə təsəvvür hasil olurdu ki, sanki Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə məqsədli şəkildə şərait yaradılırdı. Heydər Əliyev Ali Məclisin Sədri seçildikdən dərhal sonra muxtar respublikanın müdafiəsini təmin etmək məqsədilə müdafiə komitəsi yaratdı. Naxçıvanda Ulu Öndərin təşəbbüsü ilə islahatlara start verildi. Mən yaxşı xatırlayıram, respublikamızda torpaq islahatına məhz Naxçıvanda 1992-ci ilin mart ayında start verildi, özəlləşdirmə aparıldı. Beynəlxalq miqyasda böyük nüfuza malik olan Heydər Əliyev İran və Türkiyə ilə əlaqə saxladı. İranın o vaxtkı prezidenti Rəfsancani Heydər Əliyevin arxasınca öz şəxsi təyyarəsini göndərdi. Ulu Öndər İran İslam Respublikasına gedərək orada bir sıra müqavilələr imzaladı. Heydər Əliyev həmçinin Türkiyəyə səfərlər etdi, dost ölkənin prezidenti Süleyman Dəmirəllə görüşüb burada da müqavilələr bağlanmasına nail oldu. Heydər Əliyevin bu səfərlərindən sonra istər İrandan, istərsə də Türkiyədən Naxçıvana yardımlar gəlməyə başladı. Ulu Öndər 1991-1993-cü illərdə Naxçıvanı, muxtar respublikanın əhalisini bu yardımlar hesabına saxladı. Düzdür, yerli istehsal da müəyyən qədər artırdı, ancaq həmin dövrdə yardımlar olmadan Naxçıvanın müxtəlif mallara, ələlxüsus da ərzağa olan tələbatını ödəmək mümkün deyildi. Belə çətin vəziyyətdə Heydər Əliyev Naxçıvanı yalnız qoruyub saxlamadı, həm də onu inkişaf etdirdi. Naxçıvan əhalisi bütün bunları böyük minnətdarlıq hissi ilə həmişə xatırlayır. Biz Ulu Öndərin ruhu qarşısında baş əyirik ki, O, Naxçıvanı yalnız aclıqdan deyil, həm də erməni işğalından xilas etdi. Sevindirici haldır ki, Ulu Öndərin Naxçıvanda başlatdığı islahatlar, quruculuq-abadlıq tədbirləri Onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən indi də davam etdirilir.

**- Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasını mərhələlərə bölsək, bunu necə xarakterizə edərdiniz?**

- Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında xidmətləri böyük və zəngindir. Azərbaycanın qazandığı uğurlar Onun həyat və fəaliyyəti ilə birbaşa bağlıdır. İlk dəfə 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi, əslində, çağdaş tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasını qoyması kimi daxil olub. 1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gətirilməsi isə tariximizə Azərbaycanın xilas edilməsi kimi düşüb. Bir qədər əvvəl qeyd etdiyim kimi, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qısa müddət ərzində ölkədə sabitliyi bərpa edib, separatçı qüvvələri zərərsizləşdirib. Hətta 1994 və 1995-ci illərdə dövlət çevrilişi cəhdlərinin qarşısını da qətiyyətlə alıb. Məhz bu mərhələlərdən sonra xalqımız sakit həyat tərzi sürməyə başlayıb. Məhz Onun fəaliyyəti sayəsində Azərbaycan parçalanmaqdan, bir dövlət kimi məhv olmaqdan xilas edildi. Xilaskarlıq missiyasına başlayan Ulu Öndərin atdığı ilk addımlardan biri də 1994-cü ildə atəşkəs haqqında sazişin əldə edilməsi oldu. Bu, olduqca mühüm addım idi. Çünki ölkəni böhrandan çıxarmaq üçün ilk öncə müharibə dayandırılmalı, daxildə ictimai-siyasi sabitlik təmin edilməli idi. Bütün bunları həyata keçirə bilən Heydər Əliyev Azərbaycan iqtisadiyyatının dirçəldilməsi istiqamətində mühüm qərarlar qəbul etdi. Hələ Naxçıvanda olarkən aqrar islahatlara başlayan Ulu Öndər Azərbaycanda da bu prosesi sürətləndirdi, torpaq islahatları aparıldı. Ən önəmlisi isə, "Əsrin müqaviləsi" kimi tanıdığımız neft müqaviləsinin imzalanmasına, xarici sərmayədarların ölkə iqtisadiyyatına sərmayə qoymasına, təbii sərvətlərimizin beynəlxalq bazarlara çıxarılmasına nail oldu. Bunun sayəsində də ölkəyə valyuta axını başladı ki, son nəticədə regionların inkişafı, ordu quruculuğu, beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin qurulması istiqamətində addımlar atıldı. Biz Onun xilaskarlıq missiyası, mərhələli şəkildə gördüyü işlər barədə saatlarla danışa, faktlar, sübutlar sadalaya bilərik. Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir. Ümummilli Lider Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət Onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi, o cümlədən TANAP, TAP kimi qlobal iqtisadi layihələrin də əsası məhz Ulu Öndər Heydər Əliyevin zamanında atdığı addımlarla, həyata keçirdiyi xilaskarlıq missiyası ilə birbaşa bağlıdır. Ona görə də Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub. Onun yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti ölkəmizi sürətli inkişaf yoluna çıxarıb və şübhə yoxdur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan gələcəkdə də dünyanın ən güclü dövlətlərindən biri kimi tanınacaqdır.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Avstriyaya səfər edəcək



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 16-21-də Avstriyada səfərdə olacaq. Səfər müddətində Vyana şəhərində bir sıra görüş və tədbirlərin keçirilməsi nəzərdə tutulur.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, A.Paşazadə iyunun 17-də KAİCİİD Beynəlxalq dinlərarası və mədəniyyətlərarası dialoq Mərkəzinin üzvü olduğu Direktorlar Şurasında BMT-nin baş katibinin müavini, Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Miguel Moratinos ilə görüşəcək, iyunun 18-də isə Direktorlar Şurasının növbəti sessiyasında iştirak edəcək. Tədbir çərçivəsində şeyxülislamın çıxışı nəzərdə tutulub.

İyunun 19-da Vyana şəhərinin "Hofburq" sarayında QMİ nəzdində Bakı Beynəlxalq dinlərarası və sivilizasiyalararası əməkdaşlıq Mərkəzi, KAİCİİD Beynəlxalq dinlərarası və mədəniyyətlərarası dialoq Mərkəzi, Cenevrə İnsan hüquqları və qlobal dialoq Mərkəzi və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans keçiriləcək.

Konfransın təşkili Prezident İlham Əliyevin irəli sürdüyü Azərbaycanın multikulturalizm modelinin təbliğinin bəşəri önəmindən, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında müstəsna əhəmiyyət kəsb etməsindən irəli gəlir.

Tədbirdə dünyanın 30-dan artıq ölkəsini təmsil edən 300-ə yaxın dövlət, ictimaiyyət, elm və din xadimlərinin, həmçinin 5 beynəlxalq və 16 qeyri-hökumət təşkilatının rəhbərlərinin, o cümlədən, BMT baş katibinin müavinləri - M.Moratinos və R.Xalikovun, Avstriya tərəfdən Federal Hökumətin və parlamentinin nümayəndələrinin, habelə Avstriyada akkreditə olunmuş səfirliklərin və beynəlxalq təşkilatların, dini konfessiyaların nümayəndələrinin iştirakı nəzərdə tutulub.

Azərbaycan nümayəndə heyətinə ölkənin tanınmış dövlət, din və elm xadimləri daxildirlər. Səfər çərçivəsində Avstriya rəsmiləri ilə görüşlər planlaşdırılır.

Konfransın əsas müzakirə mövzuları sırasında "Sivilizasiyalararası və dinlərarası əməkdaşlığın bəşəri həmrəyliyə doğru inkişafı dünyada sülhün bərqərar olmasına xidmət edir", "Terrorizm, ekstremizm, separatizm və ksenofobiya dinlərarası əməkdaşlığa təhdid kimi", "Gənclərin maariflənmdirilməsində, mədəni və mənəvi irsin qorunmasında sivilizasiyalararası və dinlərarası əməkdaşlığın rolu", "İnsan hüquqları sahəsində, qadın və uşaq haqlarının qorunmasında din, dövlət, elm və ictimaiyyət xadimlərinin birgə fəaliyyətinin vacibliyi" kimi aktual mövzular yer alıb.

# Müasir müstəqil Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir



***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov www.yap.org.az saytına müsahibə verib:***

**- Əhliman müəllim, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə gələrək xilaskarlıq missiyasını yerinə yetirməsi xalqımız tərəfindən dövlətimizin qurtuluşu kimi qeyd olunur. Sizcə, 15 İyun - Milli Qurtuluş Gününün tariximizdə əhəmiyyəti nədən ibarətdir?**

- Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra Azərbaycanda inkişafın yeni mərhələsi başlandı. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal etdikdən sonra bütün sahələrdə tənəzzül yaranmışdı. İllərlə Ulu Öndər tərəfindən çətinliklə yaradılanlar baxımsızlıq üzündən asanlıqla dağıdılırdı. Xoşbəxtlikdən bu, uzun sürmədi və Ulu Öndərin yenidən hakimiyyətə gəlişi pərakəndəliyin, dağıntıların qarşısını aldı. Həmin dövr üçün Azərbaycan cəmiyyətindəki anarxist qüvvələrin zərərsizləşdirilməsindən sonra Ulu Öndər siyasi, hüquqi, iqtisadi, sosial sahədə demokratik islahatlar proqramının həyata keçirilməsinə start verdi.

Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində gördüyü işlərdən biri dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçdi. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Heydər Əliyev böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

**- Sizcə, qurtuluş məfkurəsi Azərbaycan xalqına və dövlətinə nə verdi?**

- Müasir müstəqil Azərbaycan dövlətinin hazırkı inkişaf mərhələsinə çatmasında bir çox amillər müstəsna rol oynamışdır. Bu sırada şəxsiyyət-lider amili mühüm yer tutur. Şübhəsiz ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyev olmuşdur. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan Ulu Öndər xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürübdür. Ümummilli Lider qlobal proseslər fonunda tam fərqli - xalqın demokratik idealları, milli dövlətçilik təfəkkürü ilə uzlaşan, hər bir mərhələ üçün konkret fəaliyyət prioritetləri, taktiki və strateji məqsədləri olan milli inkişaf strategiyasını irəli sürərək uğurla həyata keçiribdir. Ümummilli Lider 1993-cü ildən dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstəribdir.

Ümummilli Liderin şəxsiyyət kimi böyüklüyü həm də Onun bütün idarəçiliyi boyu azərbaycanlı olması ilə fəxr edib qürur duymasında, xalqın milli mənlik şüurunu, özünüdərk hissini, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi. Heydər Əliyevin bütün zəngin və mənalı ömrü Azərbaycan üçün yaşanıb, bu dahi şəxsiyyət həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf edibdir. Ümumilikdə, Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın israrlı tələbi ilə hakimiyyətə gəldikdən sonra sabitlik və təhlükəsizlik təmin edildi, bütün sahələrdə böhran və tənəzzülün qarşısı alındı, ölkə tərəqqi yoluna qədəm qoydu. Bugünkü müasir müstəqil Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir.

**- Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının bugünkü nəticələri haqqında fikirlərinizi bilmək istərdik. Heydər Əliyev siyasətinin müasir Azərbaycan dövləti üçün əhəmiyyəti nədən ibarətdir?**

- Müstəqil Azərbaycanın qurucusu və yaradıcısı, təşkilatçısı və aparıcı qüvvəsi olan Heydər Əliyev ideyaları ölkəmizin bütün sahələrində, o cümlədən ictimai və iqtisadi-siyasi, milli-ənənəvi və mədəni-kütləvi, elmi-maarifləndirici və sosial-müdafiə sahələrində əsaslı dönüş yaranmasının başlıca istiqamətverici qüvvəsi kimi öz xoşməramlı avanqardlığını hər zaman saxlamaqdadır. XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq, yeni dinamik inkişaf mərhələsinə qədəm qoyması məhz Ulu Öndər, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla ilk təməl daşlarını qoyduğu uzaqgörən siyasətin, dərin islahatlar strategiyasının nəticəsidir.

Dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan Heydər Əliyev idarəçilikdə uğurlu daxili və xarici siyasət yeridib, dünyanın güc sahibliyi ilə fərqlənən dövlətlərini Azərbaycanla hesablaşmaq, onun konsepsiyasına hörmətlə yanaşmaq faktı qarşısında qoyubdur. Yeni dünya sistemində meydan sulamaq cəhdində olan güc mərkəzləri arasında gedən çəkişmələrin pərdəarxası mahiyyətinə müvafiq şəkildə məntiqli xarici siyasət həyata keçirən müstəqil Azərbaycan Respublikası Cənubi Qafqazda lider dövlətə çevrildi, ölkəmizin regionda icra edilən bütün transmilli layihələrdə iştirakı təmin olundu. Azərbaycanın Heydər Əliyev siyasi kursuna əsaslanmaqla həyata keçirdiyi daxili siyasət də ümumən bu prinsiplərə əsaslanıb, respublikanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, beynəlxalq münasibətlər sistemində layiqli mövqeyinin təmin olunması, ikitərəfli əlaqələrdə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi milli diplomatiyanın əsas hədəflərinə çevrilibdir. Respublikamız ötən illərdə təkcə səmərəli iqtisadi təşəbbüslərlə, konkret enerji-kommunikasiya layihələri, əlverişli tranzit-kommunikasiya imkanları ilə deyil, eyni zamanda, demokratikləşmə xəttinə, Avroatlantik məkana inteqrasiya kursuna sadiqliyi ilə də Qərbin diqqətini cəlb edib, Avropa məkanında etibarlı tərəfdaş imici qazanıbdır. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası baxımından hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətini də diqqət mərkəzində saxlayan Ulu Öndər bu istiqamətdə mühüm islahatların həyata keçirilməsini təmin edibdir.

**- Əhliman müəllim, 1993-cü ildə Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoyan qüvvələr yenə də hakimiyyət iddiasındadırlar. Buna münasibətiniz necədir?**

- Azərbaycan dövlətçiliyinə qarşı olanlar bilməlidirlər ki, daha 20-30 il əvvəl deyil. Xalqımız hər şeyi gözəl bilir, pafoslu, bəlağətli çıxışlarla onu aldatmaq zamanı geridə qalıb. Bu gün ölkə başçısı İlham Əliyev Azərbaycanda demokratiyanın inkişafı üçün böyük işlər görür. Mən bir şeyi bilirəm ki, demokratik ölkədə hakimiyyətə gəlməyin yalnız bir yolu var. Mitinqlərlə, küçə yürüşləri ilə hakimiyyətə gəlmək mümkün deyil. Ölkəmizdə obyektiv, demokratik, beynəlxalq hüquq normalarına cavab verən seçkilər keçirilir. Hakimiyyətə gəlmək istəyirsən, gəl seçkilərdə iştirak et. Prezident seçkilərindən heç bir il keçmədən müxtəlif fikirlər səsləndirməyə başlayırlar. Parlament seçkilərinə hələ bir ildən çox vaxt var, deyirlər seçkilər indi keçirilsin. Niyə? Xalqımız Heydər Əliyev siyasi kursunu və Prezident İlham Əliyev siyasətini dəstəkləyir və onlarla bir yerdədir. Dövlətimiz etibarlı əllərdədir!

# Vaşinqtondakı Atlantik Şurada Azərbaycanın xarici siyasətinə həsr olunan tədbir keçirilib

*Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tədbirdə çıxış edib*




ABŞ-ın paytaxtı Vaşinqtonda fəaliyyət göstərən nüfuzlu düşüncə mərkəzlərindən olan Atlantik Şurada Azərbaycanın xarici siyasətinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ABŞ-Azərbaycan münasibətləri ilə bağlı çıxış edib. Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Atlantik Şuranın Qlobal Enerji Mərkəzinin təsisçi sədri və ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Morninqstarla müzakirəsi baş tutub. Tədbirdə əsasən Vaşinqtonda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, ictimai-siyasi xadimlər və regionla bağlı araşdırma aparan analitiklər iştirak ediblər. İctimaiyyət üçün açıq olan tədbirdə, həmçinin erməni lobbisinin xeyli sayda nümayəndələri iştirak edib.

Əvvəlcə C.Kent çıxış edərək Azərbaycan-ABŞ əlaqələrinin strateji əhəmiyyəti barədə söhbət açıb. O, Cənubi Qafqazın əhəmiyyətini vurğulayaraq Azərbaycanı vacib tərəfdaş kimi xarakterizə edib və iki ölkə arasında təhlükəsizlik, enerji və iqtisadi inkişafın təmini sahələrində uğurla davam edən əməkdaşlıqdan danışıb. ABŞ rəsmisi son dövrlər iki dövlətin rəsmilərinin səfərlərinin və dialoqunun artmasını münasibətlərin inkişafının göstəricisi kimi vurğulayıb. C.Kent Əfqanıstanda NATO-nun sülhməramlı əməliyyatlarına göstərdiyi əhəmiyyətli dəstəyə görə Azərbaycana ABŞ hökumətinin təşəkkürünü çatdırıb. Həmçinin o, ABŞ-ın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, ölkəsinin ATƏT-in Minsk qrupu çərçivəsində vasitəçilik səylərinə sadiq qaldığını bildirib və münaqişənin tezliklə həllinin regionda sülh və firavanlığın təmininə imkan yaradacağını vurğulayıb.

Daha sonra ABŞ-ın Azərbaycanda keçmiş səfiri R.Morninqstar Hikmət Hacıyev ilə bir sıra mövzularda müzakirələr aparıb.

Hikmət Hacıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatlar, ölkəmizin sosial-iqtisadi inkişaf modeli, "ASAN xidmət" təcrübəsi və regionun nəqliyyat qovşağına çevrilməsi barədə məlumat verib, Azərbaycan xarici siyasətinin əsasları, onun strateji mövqeyi, region dövlətləri ilə münasibətləri, həyata keçirdiyi və regionun xəritəsini dəyişən enerji və nəqliyyat layihələri barədə danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin hazırkı mərhələsinə toxunan Prezident Administrasiyasının rəsmisi Azərbaycan rəhbərliyinin göstərdiyi müdrik və təmkinli yanaşmasına baxmayaraq, Paşinyan hakimiyyətinin münaqişənin həllində ciddi mövqe nümayiş etdirmədiyini, əksinə, bu vaxta kimi vəziyyəti gərginləşdirən bəyanat və addımlarla yadda qaldığını qeyd edib. Bu xüsusda, H.Hacıyev Ermənistanın təmas xəttində Azərbaycan hərbi qulluqçularının ölümü ilə nəticələnən son təxribatları barədə məlumat verib və bu addımların məhz danışıqlar prosesini pozmağa yönəldiyini qeyd edib. Şöbə müdiri Ermənistanın hazırda yaşadığı iqtisadi fəsadları sadalayaraq münaqişənin həllinin, ilk növbədə, Ermənistan üçün faydalar gətirəcəyini, Ermənistanın bu iflasdan çıxmasının yeganə yolunun münaqişənin həllindən keçdiyini, təəssüf ki, hələlik Ermənistanın və erməni diasporunun bunu anlamadığını bildirib. Həmçinin H.Hacıyev Ermənistanın sülh danışıqlarında iştirak etdiyi dövrdə paralel olaraq işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətləri davam etdirdiyini qeyd edib və beynəlxalq ictimaiyyətin bu məqama daha çox diqqət yönəltməsinin vacib olduğunu vurğulayıb.

Sonda Prezident Administrasiyasının rəsmisi auditoriyanın suallarını cavablandırıb. Erməni lobbisinin təbirdə kütləvi şəkildə iştirak edən nümayəndələri tərəfindən Azərbaycan rəsmisinə təxribatçı suallar ünvanlanıb və H.Hacıyev bu suallara Ermənistanın işğalçı və beynəlxalq hüquq normalarına zidd olan siyasətini ifşa etməklə cavab verib.

# Sofiyada Dünya Xəbər Agentliklərinin VI Konqresinin açılış mərasimi keçirilib




İyunun 13-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Dünya Xəbər Agentliklərinin VI Konqresinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın BTA agentliyinin təşkilatçılığı ilə "Xəbərlərin gələcəyi" devizi altında keçirilən Konqresdə dünyanın 100-ə yaxın ölkəsindən 200-dək aparıcı xəbər agentliyinin rəhbərləri və nümayəndələri, media üzrə beynəlxalq ekspertlər, həmçinin nüfuzlu media qurumlarının təmsilçiləri iştirak ediblər.

BTA agentliyinin icraçı direktoru Maksim Minçev tədbiri açaraq Dünya Xəbər Agentlikləri Konqresinin tarixi, habelə gündəlikdə duran məsələlər barədə məlumat verib. M.Minçev qeyd edib ki, bu gün müasir dünyada xəbər yayımı bir çox problemlərlə üzləşir. Bugünkü tədbirdə obyektiv xəbərlərin yayılması, feyk xəbərlərin qarşısının alınması istiqamətində addım atmaq üçün gözəl imkan var. Biz bu iş uğrunda səylərimizi birləşdirməliyik. Maksim Minçev AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanovun agentliyin 2016-2019-cu illərdə V Konqresə sədrliyi dövründə gördüyü işləri yüksək qiymətləndirib və ona minnətdarlığını ifadə edib.

Bolqarıstanın Prezidenti Rumen Radev çıxış edərək Dünya Xəbər Agentlikləri Konqresinin əhəmiyyətinə toxunub, bu qurumun informasiya agentlikləri qarşısında duran vəzifələrin, onların üzləşdikləri problemlərin həlli üçün gözəl platforma olduğunu vurğulayıb. Bildirib ki, "Xəbərlərin gələcəyi" devizi müasir dövrümüz üçün düzgün seçilib. Belə ki, xəbərlərin gələcəyi elə bəşəriyyətin gələcəyidir. Prezident qeyd edib ki, yeni texnologiyalar, rəqəmsallaşma KİV üçün həm yeni imkanlar, həm də yeni çağırışlar yaradır. Bu gün sosial media dayanmadan inkişaf edir. Bu, həmçinin feyk xəbərlərin yayılmasına yol açır. Yəni, operativlik obyektivliyə güclü təsir edir, ziyan vurur. *"VI Konqres qarşılaşdığımız bu çağırışlara cavab vermək üçün gözəl imkandır. Feyk xəbərlərlə mübarizə təkcə informasiya agentliklərinin deyil, bütün bəşəriyyətin vəzifəsi olmalıdır"*, - deyə Prezident Rumen Radev əlavə edib.

Böyük Britaniyanın Press Association agentliyinin baş icraçı direktoru Klayv Marşal xəbər agentlikləri qarşısında duran problemlərə toxunub. Bildirib ki, sosial şəbəkələrin inkişafı, həmçinin bir sıra problemlər yaradır. Belə ki, sosial şəbəkələr reklam yerləşdirməklə xəbər agentliklərindən qat-qat çox qazanır, habelə feyk xəbərlər bu platformalarda daha tez yayılır. Feyk xəbərlər cəmiyyət üçün ciddi təhdid yaradır. K.Marşal, həmçinin jurnalistlərin üzləşdiyi problemlərə toxunaraq təəssüflə bildirib ki, müasir dövrdə vəzifə borclarını yerinə yetirən media mənsubları təhdidlərlə qarşılaşır, bəzən qətlə yetirilirlər. Bu isə yolverilməzdir. Çünki jurnalist vəzifə borcunu yerinə yetirməklə cəmiyyəti məlumatlandırır.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanov çıxış edərək bildirib ki, Dünya Xəbər Agentliklərinin V Konqresi üç il əvvəl - 2016-cı ilin noyabrında AZƏRTAC-ın və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda keçirilmişdi. Azərbaycan Prezidenti İlham Əliyevin Konqresin açılış mərasimində iştirakı və geniş nitq söyləməsi, sonradan iştirakçıların bir qrupu ilə görüşməsi Azərbaycan dövlətinin mediaya göstərdiyi diqqətin, verdiyi önəmin göstəricisi kimi indi də xatırlanır. Belə bir münbit atmosferdə keçən toplantıda biz dövrün qarşımıza çıxardığı çağırışları müzakirə etmişdik, baxışlarımızı bölüşmüşdük. Bizim toxunduğumuz məsələlər sosial media, innovasiyalar, multimedia jurnalistikası kimi aktual mövzular idi ki, onlar artıq agentliklərin gündəlik həyatının bir hissəsinə çevrilib. Əslində, 3 il tarixdə kiçik bir zaman kəsiyidir, lakin bu illər ərzində müasir texnologiyalar çox sürətlə dəyişib və bu, bizim fəaliyyətimizə də təsir edərək ümumilikdə jurnalistikanın dəyişməsini şərtləndirib.

Altıncı Konqresin mövzusunun əhəmiyyətinə toxunan Aslan Aslanov deyib: *"Xəbərlərin gələcəyi bu gün hamını düşündürür. Ola bilər ki, kimsə bununla bağlı nikbin, kimsə bədbin fikirdədir. Şəxsən mən belə hesab edirəm ki, xəbərin gələcəyi informasiya agentliklərinin, yəni, bizim əlimizdədir. Odur ki, bu Konqresin mövzuları müasir dövrün tələbləri nəzərə alınaraq agentliklərin perspektivlərinin müzakirəsi ətrafında qurulacaq. Yuxarıda qeyd etdiyim bütün amillər müzakirələrimizin mərkəzində olacaq. Elə Konqresin də qlobal məqsədi dünyanın hər bir nöqtəsindəki agentliyin yeniliklərlə, həmçinin bu sahədə toplanmış təcrübə ilə tanış olmasını təmin etməkdir".*

Dünya Xəbər Agentlikləri Konqresinin ən etibarlı informasiya istehsalçılarını birləşdirən təşkilat olduğunu diqqətə çatdıran Konqresin prezidenti A.Aslanov qeyd edib ki, biz bu mövqeyi saxlamaqla yanaşı, gərək onu daha da möhkəmləndirək və indiki mürəkkəb informasiya mühitində məhz bizim etibarlı tərəfdaş olduğumuzu media bazarı iştirakçılarına çatdıraq. Bu gün Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik AZƏRTAC-dan BTA-ya keçir. Əminəm ki, başladığımız işləri yenə birlikdə davam etdirəcək, xəbərlərin gələcəyinə etibarlı təminat yaradacağıq.

Bolqarıstanın Mədəniyyət naziri Boil Banov çıxış edərək bildirib ki, müasir dövrdə feyk xəbərlərin qarşısının alınması, müəllif hüququnun qorunması ciddi müzakirə mövzusu olmalı və bu istiqamətdə düşünülmüş addımlar atılmalıdır. O, VI Konqresin bu istiqamətdə məsələləri müzakirə etmək üçün əhəmiyyətli platforma olduğuna əminliyini ifadə edib, tədbirin işinə uğurlar arzulayıb.

Almaniyanın DPA agentliyinin baş icraçı direktoru, Avropa Xəbər Agentlikləri Alyansının prezidenti Piter Kropş və digər çıxış edənlər müasir dövrdə media sahəsində əldə olunan uğurlardan, bu sahənin qarşılaşdığı problemlərdən və onların həlli yollarından danışıblar, müxtəlif təqdimatlarla çıxış ediblər.

Rəsmi hissədən sonra Konqres işini "Xəbər agentliklərinin sahiblik modelləri" mövzusunda panel iclasla davam etdirib.

Tədbirdə Azərbaycandan Trend informasiya agentliyinin baş direktoru İlqar Hüseynov da iştirak edib.

Xatırladaq ki, Dünya Xəbər Agentlikləri Konqresi Rusiyanın TASS agentliyinin təşəbbüsü ilə ilk dəfə 2004-cü il sentyabrın 24-25-də Moskvada baş tutub. Dünya Xəbər Agentliklərinin V Konqresi 2016-cı ildə AZƏRTAC-ın və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə Bakıda keçirilib.

# Bakıda VI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu keçirilib







İyunun 13-də Bakıda VI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Bakı Avrasiya Universitetinin rektoru professor Nazim Hüseynli simpoziumun önəmindən bəhs edib. O qeyd edib ki, türkdilli ölkələrin nümayəndələrinin iştirak etdiyi bu tədbirdə türk xalqlarının ortaq dəyərlərindən bəhs olunacaq. Simpoziumda türkdilli dövlətlərin universitetlərinin müəllim və tələbələrinin çıxışlarının olacağını deyən rektor tədbir iştirakçılarının qarşılıqlı fikir mübadiləsi aparacaqlarını bildirib.

Sonra türkoloq Zəminə Rüstəmbəyli türk xalqlarının qəhrəmanlıq tarixindən danışıb. O əlavə edib ki, türk xalqlarının dövlətçilik ənənəsi əsrləri əhatə edir. Məhz bunun nəticəsidir ki, bu gün dünyada kifayət qədər nüfuzu olan türkdilli dövlətlər mövcuddur. Orta Asiya, Qafqaz, Asiya və Avropanın bir hissəsini əhatə edən türk coğrafiyası dünyanın mədəni və siyasi tarixində böyük yerə malikdir.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, bu gün türkdilli dövlətlər TÜRKSOY, TÜRKPA, Türk Şurası kimi mötəbər təşkilatlarda təmsil olunurlar. Türk dünyası alimlərini bir araya gətirən Türk Akademiyası fəaliyyət göstərir. Deputat qeyd edib ki, Türk Şurasının Naxçıvanda yaradılması dünyaya verilən önəmli siyasi mesajdır.

Türk xalqlarının dərin dövlətçilik tarixinin olduğunu diqqətə çatdıran Hikmət Babaoğlu vurğulayıb ki, dünyada beş mindən çox xalq olsa da, onlardan cəmi iki yüzünün dövləti var. Dünya tarixində ilk dövlətlərin tarixi beş-altı min il əvvələ gedir. Beş min il əvvəl bizim dövlətimiz var idi. Eyni zamanda, latınların, midiyalıların və digərlərinin də dövləti var idi. Onlar bu gün yoxdur, ancaq türk dövlətləri bu gün də mövcuddur. Yəni, beş min il əvvəl də dövlətimiz var idi, indi də var və gələcəkdə də olacaq.

Deputat əlavə edib ki, 100 il bundan əvvəl bəzi qüvvələr türk dövlətçiliyinə əngəl yaratmaq məqsədilə xalqlarımızın coğrafiyasında fitnəkar bir erməni dövləti yaratdılar. Tarixi və keçmişi olmayan bu dövlət 100 il əvvəl olduğu kimi, bu gün də təxribatçı planlarını həyata keçirir.

Daha sonra simpozium müzakirələrlə davam edib.

# Fransanın Qrenobl məhkəməsinin qərarı separatçı rejimin beynəlxalq miqyasda tanıdılması cəhdlərini iflasa uğratdı

*Xaricdə yaşayan və milli mənafelərdən danışan "söyüş müxalifəti"nin üzvlərinin belə məsələlərdə susqunluq nümayiş etdirməsi isə onlarda heç bir milli təssübkeşliyin olmadığını göstərir*

Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvil şəhəri ilə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilər tərəfindən yaradılmış terrorçu, separatçı rejim arasında "Dostluq haqqında xartiya"nı ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də oxşar qərarın qəbul edilməsi separatçı rejimin beynəlxalq miqyasda tanıdılması cəhdlərinin iflasa uğradığını göstərir. Qeyd edək ki, erməni separatçılarının təxribatçı fəaliyyətlərinin növbəti dəfə uğursuzluğa düçar olması Azərbaycanın xarici siyasət və beynəlxalq münasibətlər sahəsində qətiyyətli mövqe sərgilməsi nəticəsində mümkün olub.

Bu kontekstdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və milli maraqlara əsaslanan siyasi xəttin beynəlxalq aləm və Avropanın aparıcı dövlətləri tərəfindən qəbul olunduğunu və dəstəkləndiyini görürük. Azərbaycanın beynəlxalq müstəvidə daim diqqət mərkəzinə gətirdiyi və qətiyyətli mövqe nümayiş etdirdiyi məsələ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir.

Yuxarıda qeyd olunanları nəzərə alsaq, Fransa məhkəmələri tərəfindən qəbul edilən qərarları həm də beynəlxalq ictimaiyyətin separatçılıq meyillərini qınamasının növbəti təzahürü də hesab etmək olar. Belə ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış və nəinki Fransa, heç işğalçı Ermənistanın özü tərəfindən belə tanınmayan qeyri-qanuni separatçı rejimin yerli orqanları ilə "dostluq xartiyaları"nın imzalanması Fransanın beynəlxalq fəaliyyətinin ardıcıllığını ciddi şəkildə sarsıdır və xalqlar arasında qarşılıqlı anlaşmanın məğzini, o cümlədən beynəlxalq diplomatik münasibətlərin inkişafının harmoniyasını təhdid edirdi. Məhz bu baxımdan 29 may 2019-cu il tarixində Serji-Pontuaz inzibati məhkəməsi sözügedən xartiyanı "Fransanın beynəlxalq öhdəliklərinə hörmət etmir" və "Dövlətin müstəsna səlahiyyəti olan Fransanın xarici siyasətinə qarşı çıxır" arqumentləri ilə dövlətin nüfuzuna xələl gətirməsini əsas götürərək ləğv etmişdi. Sonuncu qərarın qəbul olunduğu Fransanın Qrenobl inzibati məhkəməsi də eyni arqumentləri əsas gətirərək erməni təxribatının "məhsulu" olan 4 xartiyanı ləğv edib. Buna əsas isə, təbii ki, 20 dekabr 1993-cü il tarixində Fransa və Azərbaycan arasında imzalanmış "Dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə"nin 2-ci maddəsində tərəflərin beynəlxalq təhlükəsizliyin təmin edilməsi, münaqişələrin qarşısının alınması, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn rəhbər tutulması, beynəlxalq səviyyədə tanınmış sərhədlərin pozulmaması prinsipinə hörmət edilməsi naminə səylərini birləşdirəcəklərinə dair üzərlərinə öhdəliklər götürməsi olub. Sözügedən müqavilənin müvafiq maddəsi də bədnam xartiyaların imzalanmasının Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə zidd olmasını göstərir.



Digər tərəfdən, bu xartiyaların imzalanması ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Fransanın bitərəfliyini şübhə altına alırdı. Ona görə ki, Fransa 3 həmsədr ölkədən biri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli və sülh yolu ilə həllinin tapılmasını təşviq etməyi də birbaşa öhdəsinə götürüb. Fransanın vasitəçilik missiyasını şübhə altına alan "qanunsuz xartiyalar"ın ləğvi Fransanın münaqişənin həllindəki mövqeyinə etimadı artıra, eləcə də uzun müddət davam edən münaqişənin həllinə töhfə ola bilər.

Azərbaycan dövlətinin qətiyyətli xarici siyasətinin, uzaqgörən diplomatiyasının, ümumiyyətlə, xalqımızın Avropa məkanında əldə etdiyi uğurun aktuallığını qoruduğu bir vaxtda diqqətimizi çəkən məqamlardan xaricdə saxta vətənpərvərlikdən dəm vuran bəzi şəxslərin susmasıdır. Ölkəmizdəki radikalların ikrah doğuran təbliğatına xaricdə "züy tutan" "söyüş müxalifəti"nin nümayəndələri, çox güman ki, ermənilərdən betər şəkildə pərtlik keçirirlər. Buradan bir daha aydın görünür ki, Azərbaycanın milli maraqlarının qorunması xaricdəki "söyüş müxalifəti"nin proqramına daxil deyil. Ona görə ki, hətta ermənilər bu məğlubiyyəti xaricdəki informasiya vasitələri ilə yaydılar və bütün dünya bildi ki, ermənilərin təxribatçı fəaliyyəti iflasa məhkumdur. Avropanın küçələrində Azərbaycanın milli maraqlarından dəm vuranlar isə qınlarına çəkiliblər. Halbuki onlar yersiz və haqsız şəkildə Azərbaycan dövlətini təhqir edəndə xüsusi canfəşanlıq göstərir, sanki bundan həzz alırlar. Lakin beynəlxalq müstəvidə böyük əhəmiyyət daşıyan bu qəbildən olan ümummilli məsələlərdə isə susurlar.

Bu vəziyyətdə xaricdə yaşayan və yeri gəldi-gəlmədi özlərini "vətənpərvər" və "milli mənafelərin qeydinə qalan" şəxslər kimi təqdim edənlərin susqunluq nümayiş etdirməsi onların anatomiyasında heç bir milli təəssübkeşliyin olmadığını göstərir. Nə qədər acınacaqlı olsa da, bu hadisə bir daha sübut etdi ki, həmin o "söyüş müxalifəti"nin Avropadakı "rupor"larının aldıqları sifarişlər məhz Azərbaycanı gözdən salmaq yönündədir və maddi maraqlarını hər şeydən üstün tuturlar.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# "Gəncə-Universam" QSC-nin 2018-ci il üçün maliyyə hesabatı

Gəncə-Universam QSC VÖEN 2300072321

Maliyyə Durumu Haqqında Hesabat

Azərbaycan manatı ilə

| Maddənin №-si | | Qeyd | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|---|
| | Aktivlər | | | |
| 1 | *Uzunmüddətli aktivlər* | | 106671,72 | 114794,32 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 111-112+113 | 106671,72 | 114794,32 |
| 12 | Qeyri-maddi aktivlər | 121-122 | | |
| 17 | Uzunmüddətli debitor borcla | 17X | | |
| 19 | İnvestisiyalar | 19X | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **106671,72** | **114794,32** |
| 2 | *Qısamüddətli aktivlər* | | 106903,12 | 98457,65 |
| 20 | Ehtiyatlar | 20X-208 | | |
| 21 | Qısamüddətli debitor borcla | 21X-218 | 1436,8 | |
| 22 | Pul vəsaitləri və onların ekv | 22X | 7069,17 | 60,5 |
| 23 | Sair qısamüddətli maliyyə a | 23X-235 | 98397,15 | 98397,15 |
| 24 | Sair qısamüddətli aktivlər | 24X | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **106903,12** | **98457,65** |
| | **CƏMİ AKTİVLƏR** | | **213574,84** | **213251,97** |
| 30 | Ödənilmiş nominal (nizamn | 301-302 | 184863,2 | 184863,2 |
| 31 | Kapital ehtiyatları | 31X | 7878 | |
| 34 | Bölüşdürülməmiş mənfəət ( | 34X-344 | 19755,96 | 27584,27 |
| | **CƏMİ KAPİTAL** | | **212497,16** | **212447,47** |
| | **ÖHDƏLİKLƏR** | | | |
| 4 | Uzunmüddətli öhdəliklər | | 0 | 0 |
| 42 | Təxirə salınmış vergi öhdəli | 42X | | |
| 43 | Uzunmüddətli kreditor borcl | 43X | | |
| 44 | Sair uzunmüddətli öhdəliklə | 44X | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **0** | **0** |
| 5 | Qısamüddətli öhdəliklər | | 1077,68 | 804,5 |
| 52 | Vergi və sair məcburi ödəni | 52X | 1077,68 | 804,5 |
| 53 | Qısamüddətli kreditor borcla | 53X | | |
| 54 | Sair qısamüddətli öhdəliklər | 54X | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **1077,68** | **804,5** |
| | CƏMİ ÖHDƏLİKLƏR | | 1077,68 | 804,5 |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **213574,84** | **213251,97** |

Rəhbər Baş mühasib 0

Məcmu Gəlirlər Haqqında Hesabat

| nin №- | | Qeyd | 2018-ci il | 2017-ci il |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 20 | 80498 | 75786 |
| 70 | Satışın maya dəyəri | 24 | 54608,83 | 56907,08 |
| | **Ümumi mənfəət** | | **25889,17** | **18878,92** |
| 61 | Sair əməliyyat gəlirləri | 21 | | |
| 72 | İnzibati xərclər | 25 | 1107,33 | 1191,75 |
| | **Əməliyyat (mənfəəti)** | | **24781,84** | **17687,17** |
| 63 | Maliyyə gəliri | 22 | x | x |
| 75 | Maliyyə xərcləri | 27 | | |
| | Fövqəladə gəlirlər | 23 | | |
| | Fövqəladə xərclər | 26 | | |
| | **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **24781,84** | **17687,17** |
| 90 | Mənfəət vergisi | 28 | 4956,37 | 3537,43 |
| 80 | Hesabat dövründə xalis mənfəət (zərəri) | | x(x) | x(x) |
| | Mənfəətdə iştirak payi: | | | |
| | Səhmdarların payı | | 19825,47 | 14149,74 |
| | Azlıqların payı | | | |
| | bir səhmin əsas mənfəəti | 29 | 0,2145 | 0,1531 |

Rəhbər Baş mühasib

KAPİTALDA DƏYİŞİLİKLƏR HESABATI

Azərbaycan manatı ilə

| | Qeyd | Kapitalı | ehtiyatları | miş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2017 tarix ə qalıq** | | **184863,2** | **0** | **27584,27** | **212447,47** |
| 2017-ci il üzrə xalis mənfəət | | | | | |
| Mülkiyyətçilərin karital qoyuluşları | **19** | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| **31 dekabr 2017 tarix ə qalıq** | | | | | |
| 2018-ci il üzrə xalis mənfəət | | | | **19825,47** | |
| **31 dekabr 2018 tarix ə qalıq** | 19 | **184863,20** | **7878,00** | **19755,96** | **212497,16** |
| Kapital qoyuluşuna | | | | 7878,00 | |
| Elan edilmiş dividendlər | | | | | |
| **31 dekabr 2018 tarix ə qalıq** | | **184863,20** | **7878,00** | **19755,96** | **212497,16** |

Rəhbər Baş mühasib

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCƏ ŞƏHƏRİ "GƏNCƏ-UNİVERSAM" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın bölgələrində turizmin inkişafı istiqamətində layihələr reallaşdırılır

*Turizm potensialı baxımından əlverişli olan regionlarımız yay mövsümündə xarici və yerli qonaqları qəbul etməyə hazırdır*






Hazırda bütün dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri sayılır. İstər ölkələrin tanıdılması, istərsə də ölkənin gəlirlərinin artırılması üçün turizm sahəsinə diqqət ildən-ilə artır. Ölkəmizdə də qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası istiqamətində turizm sahəsinə xüsusi diqqət ayrılıb. Vurğulamaq gərəkdir ki, məhz Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə turizm ölkə iqtisadiyyatının aparıcı sahəsinə çevrilməkdədir. Ölkənin turizm potensialının yalnız Bakı şəhəri üzrə deyil, eyni zamanda, regionlar üzrə aşkarlanması, regional turizmi inkişaf etdirmək üçün tədbirlər görülür.

Azərbaycanın bölgələrinin turizm potensialının xaricdə beynəlxalq auditoriyaya çatdırılması işində genişmiqyaslı təbliğat və marketinq tədbirləri görülür. Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi də şübhəsizdir ki, turizmin inkişafına, ölkəmizin tanıdılmasına öz davamlı töhfələrini verməkdədir. Belə ki, ölkəmizə turistlərin cəlb edilməsi üçün dövlət səviyyəsində Azərbaycanın dünya arenasında müxtəlif istiqamətli təbliğatı həyata keçirilir.

## ÖLKƏMİZƏ GƏLƏN ƏCNƏBİLƏRİN SAYINI ARTIRMAQ ÜÇÜN BAKIDA VƏ REGİONLARDA AZƏRBAYCANIN TURİZM POTENSİALI TƏBLİĞ EDİLİR

Bu yaxınlarda Azərbaycanın turizm şirkətlərinin nümayəndələri Gürcüstanın Acarıstan Muxtar Respublikasında səfərdə olublar. Səfər çərçivəsində ölkəmizi təmsil edən şirkətlərin təmsilçiləri Acarıstanın turizm potensialı ilə tanış olublar. Keçirilən görüşlərdə qarşılıqlı əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Nümayəndə heyətimizin üzvləri Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı və artan turizm potensialı barədə acarıstanlı həmkarlarına ətraflı məlumat veriblər. Qarşılıqlı olaraq turist səfərlərinin təşkili barədə razılıq əldə olunub. Azərbaycan nümayəndə heyəti Batumi şəhərinin turizm məkanları, mehmanxana infrastrukturu ilə tanış olub, Acarıstanın digər bölgələrinə səfərlər ediblər.

Bu yaxınlarda Batumi şəhərində "EXPO BATUMI TRAVEL / EXPO MED 2019" 12-ci beynəlxalq mehmanxana avadanlığı və tibbi turizm sərgisi də baş tutub. Acarıstan hökuməti, Acarıstan Turizm və Kurortlar Departamenti, Batumi şəhər meriyası, Acarıstan Ticarət-Sənaye Palatası və Gürcüstan Beynəlxalq Sərmayəçilər Assosiasiyasının himayədarlığı ilə keçirilən sərgidə Azərbaycan da təmsil olunub. Batumidəki Baş konsulluğun təşkilatçılığı ilə sərgidə Azərbaycanın "Buta Airways" aviaşirkətinin, "Premier Travel", Naxçıvan Muxtar Respublikasının turistik şirkətlərinin nümayəndələri iştirak ediblər.

Bu yaxınlarda Naxçıvan şəhəri ilə qardaşlaşan Bolqarıstanın Veliko Tırnovo şəhərində keçirilən 16-cı ənənəvi "Mədəni turizm" Beynəlxalq Turizm Sərgisində də Azərbaycan növbəti dəfə milli stendlə təmsil olunub. Azərbaycan Dövlət Turizm Agentliyi tərəfindən təqdim edilmiş ölkəmizin turizm potensialını əks etdirən broşürlər və suvenirlər tədbir iştirakçılarına paylanılıb. Sərgidə Azərbaycanın mədəniyyəti, adət-ənənələri, tarixi və turizm imkanları, eləcə də 2018-ci ilin yanvar ayında açılan Bakı ilə Sofiya arasında birbaşa hava əlaqəsi barədə ətraflı məlumat verilib. Ölkə stendində Azərbaycan xalçaları və sənətkarlıq nümunələri, eləcə də rəqs geyimləri nümayiş etdirilib. Sərgidə həmçinin Azərbaycanın istehsalı olan nar şirəsinin dequstasiyası keçirilib, ziyarətçilərə Azərbaycan milli şirniyyatları olan şəkərbura və paxlava paylanılıb. Sözügedən sərginin açılışında iştirak edən Bolqarıstanın turizm naziri Nikolina Angelkova, Veliko Tırnovo şəhərinin meri Daniel Panov və digər rəsmi qonaqlar Azərbaycan stendini ziyarət edib, ölkəmizin mədəniyyəti və turizm imkanları barədə məlumatlandırılıb.

Qeyd edək ki, 16-cı "Mədəni Turizm" sərgisi Bolqarıstanın Turizm və Mədəniyyət nazirliklərinin dəstəyi və Veliko Tırnovo şəhərinin Bələdiyyəsi, Bolqarıstanın Tur Operatorları və Səyahət Agentliklərinin Assosiasiyası (ABTTA), Bolqar Otel və Restoranlar Assosiasiyası və "Tsarevgrad Tarnov" Bələdiyyə Turizm Agentliyinin birgə təşkilatçılığı ilə keçirilib. Sərgidə Bolqarıstan, Azərbaycan, Vyetnam, Fələstin Dövləti, Cənubi Afrika, İndoneziya, Çin və Serbiya daxil olmaqla tanınmış və ekzotik turizm məkanlarını nümayiş etdirən 30-a yaxın bolqar və xarici şirkət və qurumlar iştirak ediblər.

Azərbaycanın turizm potensialının xarici ölkələrdə təbliği ilə yanaşı, bu yöndə daha bir tədbir Bakıda keçirilib. Dövlət Turizm Agentliyi tərəfindən Almaniyadan olan turoperatorlarla yerli turizm şirkətlərinin nümayəndələri arasında tanışlıq görüşü təşkil edilib. Dövlət Turizm Agentliyindən bildirilib ki, 150-dən çox yerli şirkətin iştirak etdiyi görüşdə alman şirkətləri ilə əməkdaşlıq imkanları müzakirə olunub, gələcək tərəfdaşlıq üçün ikitərəfli müzakirələr aparılıb.

Onu da qeyd edək ki, Berlin, Frankfurt, Münhen, Bremen və Köln şəhərlərindən olan alman şirkətlərinin Azərbaycan haqqında ətraflı məlumatlandırılması məqsədilə Bakı və regionlara tanışlıq səfərləri təşkil olunub. Agentliyin tabeliyində olan Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə baş tutan səfər çərçivəsində Bakı, Qəbələ, Şamaxı və Şəkinin turizm məkanlarını ziyarətlə yanaşı, şərabçılıq və kəlağayı istehsalı ilə bağlı tarixi ənənələr haqqında da məlumat verilib. Əsasən təbiət və mədəniyyət turizmi üzrə ixtisaslaşmış turoperatorların alman turistlərə təklif etdikləri səyahət paketlərinə bu il və gələn il üçün Azərbaycanın ayrıca bir istiqamət kimi daxil edilməsi planlaşdırılır.

Azərbaycan Turizm Bürosu tərəfindən Hindistandan olan turizm şirkətləri və yerli turoperatorların nümayəndələri arasında tanışlıq görüşü də təşkil olunub. B2B xarakterli və 50-dən çox yerli turoperatorun iştirak etdiyi görüşdə turizm sahəsi üzrə ixtisaslaşmış Hindistan şirkətləri ilə mümkün əməkdaşlıq imkanları müzakirə olunub və gələcək tərəfdaşlıq üçün ikitərəfli müzakirələr aparılıb. Dövlət Turizm Agentliyindən bildirilib ki, Hindistan şirkətlərinə Azərbaycanın turizm potensialı barədə ətraflı məlumat verilən tədbirin əsas məqsədi Bakıda və regionlarda Azərbaycanın turizm potensialının təqdimatı və ölkəmizə gələn əcnəbilərin sayını artırmaqdır. Mumbay şəhərindən olan şirkətlərin ölkəmiz və onun turizm imkanları barədə ətraflı məlumatlandırılması məqsədilə Bakı, Şamaxı və Qəbələ şəhərlərinə tanışlıq səfərləri təşkil olunub. Qonaqlar Bakıda xidmət göstərən hotellərə və "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna baş çəkiblər. Qeyd edək ki, 2018-ci ilin sonundan etibarən Hindistanın Mumbay şəhərində ölkəmizin rəsmi turizm nümayəndəliyi fəaliyyət göstərir.

Bununla yanaşı, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının təşkil etdiyi "Turizm imkanlarının kəşf edilməsi" adlı işgüzar görüş keçirilib. Görüşdə xüsusi qonaq olaraq dəvət olunan Azərbaycan Turizm Bürosunun icraçı direktoru Florian Zenqstşmid çıxış edib. Dövlət Turizm Agentliyindən bildirilib ki, F.Zenqstşmid qonaqları Azərbaycan Turizm Bürosunun fəaliyyəti, Azərbaycan turizm strategiyasının konsepsiyası, ölkə turizminin inkişafına dair planlar barədə məlumatlandırıb və beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayaraq yeni tərəfdaşlarla əlaqələr yaratmaq üçün görülən işlər barədə danışıb.

## AZƏRBAYCANDA TURİZM SAHƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ 45,5 MİLYON MANAT GÜZƏŞTLİ KREDİT VERİLİB

Xatırladaq ki, turizm sektorunun inkişaf perspektivləri daim diqqət mərkəzindədir. İyunun 3-də İqtisadiyyat Nazirliyinin və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə "Azərbaycanda turizmin inkişaf perspektivləri və bu sahədə fəaliyyət göstərən sahibkarların dövlətin güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması" mövzusunda konfrans keçirilib. Konfransda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən turizmin inkişafına ayrılmış güzəştli kreditlərdən istifadənin səmərəliliyinin artırılması barədə müzakirələr aparılıb. Konfransda İqtisadiyyat, Vergilər, Səhiyyə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin, Dövlət Turizm Agentliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Dövlət Gömrük Komitəsinin, Qida Təhlükəsizliyi Agentliyinin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin, Dövlət Sərhəd Xidmətinin, Dövlət Reklam Agentliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, "Azəriqaz" İstehsalat Birliyinin, Milli Turizm Təbliğat Bürosunun, Azərbaycan Hotel Assosiasiyasının, biznes subyektlərinin və QHT nümayəndələri iştirak edib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlət başçısının rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. Nazir müavini digər sahələrə olduğu kimi turizm sahəsinə dövlət qayğısını vurğulayaraq bu sahənin inkişafı üçün geniş imkanları, əlverişli turizm infrastrukturunun yaradıldığını, beynəlxalq standartlara cavab verən hotellərin, müalicə-sağlamlıq komplekslərinin, istirahət zonalarının istifadəyə verildiyini, ölkəyə daha çox turistin cəlb olunması və milli turizm kompleksinin rəqabətə davamlılığının yüksəldilməsi üçün layihələrin reallaşdırıldığını diqqətə çatdırıb: **"Turizmin inkişafına digər dəstək tədbirləri ilə yanaşı, güzəştli kreditlərdən istifadə imkanları da genişləndirilib. İndiyədək Sahibkarlığın İnkişafı Fondu 202 investisiya layihəsinin maliyyələşdirilməsinə 45,5 milyon manat güzəştli kredit vəsaiti ayırıb və bu layihələrin hesabına 4 min 640 yeni iş yerinin açılması imkanı yaranıb".**

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev turizm sahəsində mövcud vəziyyət və qarşıda duran hədəflər barədə məlumat verib, son illər ölkənin turizm sektorunda inkişaf meyillərini və ölkəmizdə təşkil edilən beynəlxalq tədbirlərin ölkəyə turist axınının sürətləndirdiyini diqqətə çatdırıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədr müavini Faiq Abbasov qurumun fəaliyyəti barədə məlumat verərək sahibkarlara göstərilən müxtəlif dəstək mexanizmlərini, o cümlədən ölkə regionları üzrə "KOB Dostu" şəbəkəsinin genişləndirilməsi və "KOB Evi"nin yaradılması istiqamətində tədbirlərin davam etdirildiyini vurğulayıb.

(davamı növbəti sayımızda)

Qaşqay ZİYƏDDİNOĞLU

# YAP Binəqədi rayon təşkilatında "Qurtuluşdan tərəqqiyə" adlı tədbir keçirilib




Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının inzibati binasında 15 İyun - Milli Qurtuluş Günü və Heydər Əliyev dərslərinin yekunu ilə bağlı "Qurtuluşdan tərəqqiyə" adlı tədbir keçirilib. Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Binəqədi Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdən əvvəl iştirakçılar Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası önündəki abidəsinin qarşısına gül dəstələri düzərək, Ümummilli Liderimizin əziz xatirəsini ehtiramla yad ediblər. Tədbirin rəsmi hissəsinə başlamazdan öncə Heydər Əliyev dərslərinin silsilə tədbirlərindən bəhs edən videoçarx nümayiş etdirilib.



Tədbiri giriş nitqi ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Heydər Əliyev dərslərinin Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin araşdırılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması məqsədilə keçirildiyini bildirib. R.Göyüşovun sözlərinə görə, Heydər Əliyev dərsləri artıq altıncı ildir ki, keçirilir: **"Bu il dərslərin formatında bir qədər dəyişikliklər edilərək, mühazirələrə ictimai-siyasi xadimlər, eləcə də idarəetmədə təcrübəsi olan şəxslər cəlb ediliblər".**

Tədbirdə geniş məruzə ilə çıxış edən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Əsgərov Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, ölkəmizdə təhsilin inkişafı ilə bağlı mühüm qərarlar Ümummilli Liderin adı ilə bağlıdır. Ulu Öndərin təhsilə və yüksək təhsil görmüş ixtisaslı peşəkar kadrlara verdiyi qiymət Onun Azərbaycanın gələcəyi ilə bağlı konsepsiyasının tərkib hissəsi idi.

Tədbirdə çıxış edən Binəqədi rayonu 284 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Nizami Novruzov, Binəqədi rayonu 99 nömrəli tam orta ümumtəhsil məktəbinin tarix müəllimi, Heydər Əliyev dərslərinin məruzəçisi Ruslan Məhiyev Ulu Öndərin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərindən danışıblar.

Binəqədi rayonu 314 nömrəli tam orta ümumtəhsil məktəbinin 11-ci sinif şagirdi, Heydər Əliyev dərslərinin iştirakçısı Səbinə Nəsibli də çıxışında Ulu Öndərə həsr etdiyi esse yazısını təqdim edib.

Tədbirdə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov müstəqil və müasir Azərbaycanın qurucusu və memarı, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri olduğunu bildirib. V.İsmayılov qeyd edib ki, Ulu Öndərin zəngin və çoxşaxəli irsi daim araşdırılmalı, öyrənilməli və gənclərə çatdırılmalıdır.

Sonda il ərzində Heydər Əliyev dərslərində iştirak edən ən fəal 32 şagird və bir məruzəçi müəllimin mükafatlandırılması mərasimi keçirilib.

Tədbir bədii hissə ilə yekunlaşıb.

# Müştərilərin rahatlığı üçün "Nar" artıq hipermarketdə

Müştərilərinin rahatlığını və xidmət səviyyəsini daha da artırmaq məqsədilə, "Nar" satış nöqtəsi insanların daha çox olduğu məkanlarda da xidmət göstərməyə başlayır. Mobil operator "Bravo" supermarketlər şəbəkəsinin Əhmədli qəsəbəsində yerləşən filialında yeni satış nöqtəsini istifadəyə verib. Hipermarketdə yerləşən satış nöqtəsində "Nar" öz müştərilərinə müxtəlif təkliflərlə xidmət göstərəcək. Müştərilər bu məkanda "Nar" nömrələrini və Wi-FI ruterini ala, eyni zamanda SİM kart dəyişikliyi edə bilərlər. Gələcəkdə digər hipermarketlərdə də "Nar" satış nöqtəsinin açılması planlaşdırılır.




Qeyd edək ki, yeni satış nöqtəsi Xətai rayonu, Ramiz Quliyev küçəsi 4 ünvanında yerləşən "Bravo" hipermarketində yerləşir. İş saatı isə həftənin bütün günləri, saat 10:00 -dan 19:00 - a qədərdir.

# Azercell uşaqlara dəstək verməyə davam edir

AZƏRBAYCAN UŞAQ QAYNAR XƏTT XİDMƏTİ
*Ümidli Gələcək Gənclər Təşkilatının bir xidməti*
UŞAQ QAYNAR XƏTTİNƏ ZƏNG ET!
UNUTMA: YARDIM TELEFON QƏDƏR YAXINDIR
(012) 480 22 80
(050) 680 22 80
(051) 880 22 80
(051) 580 22 80
(051) 880 11 80

Öz Korporativ Sosial Məsuliyyət siyasətində uşaqların müdafiəsi və hüquqlarının qorunmasına yönəlmiş təşəbbüslərə xüsusi önəm verən "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilən layihələrdən biri "Uşaq Qaynar Xətt" xidmətidir. Uşaqlarla iş sahəsində geniş təcrübəyə malik olan psixoloqlar, hüquqşünaslar və sosial işçilərdən ibarət heyətə malik "Qaynar Xətt" xidmətinin əsas məqsədi uşaqlara ilkin psixoloji yardımın, emosional dəstəyin, habelə müxtəlif problemlərin həllinə dair məsləhətlərin verilməsi, reabilitasiya mərkəzlərinə və digər xidmətlərə yönləndirmə və təxirəsalınmaz köməyin göstərilməsidir.

Təkcə bu ilin may ayı ərzində xidmətdən yararlanan uşaqların sayı 421 nəfər təşkil edib. Bu müraciətlərdən 217-si təhsil, 33-ü psixoloji, 7-si səhiyyə, 35-i sosial,39-u hüquqi problemlərlə bağlı olub. Onu da qeyd edək ki, müraciətlərdən 370-i 18 yaşdan yuxarı, 48-i isə 18 yaşdan aşağı vətəndaşlarımıza aiddir. Ümumilikdə, yanvar- may ayları ərzində "Uşaq Qaynar Xətt" xidmətinə 1603 zəng daxil olub. 2010-cu ildən 2019-cu ilin iyun ayına qədər isə xidmətdən 37 895 uşaq yararlanıb.

"Uşaq Qaynar Xətt"inin ölkənin istənilən nöqtəsində əlçatan olmasını təmin etmək üçün, Azercell şirkətinin təşəbbüsü ilə 2017-ci ildə İOS və Android əməliyyat sistemlərini dəstəkləyən mobil tətbiqi istifadəyə verilib. 2018-ci ilin iyun ayının 13-dən isə xidmətin Göygöl ofisi fəaliyyətə başlayıb. Mərkəz Göygöl rayonunun sakinləri ilə yanaşı, ətraf rayonlarda (Goranboy, Gəncə, Şəmkir, Qazax, Ağstafa) yaşayan uşaqlara da xidmət göstərir.

Qeyd edək ki, "Azercell Telekom" MMC-nin dəstəyi, "Ümidli Gələcək İctimai Birliyi"nin təşkilatçılığı ilə 24 saat fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə həm şəhərdaxili, həm də Azercell nömrələrindən edilən zənglər ödənişsizdir. (012) 480 22 80, (050) 680 22 80, (051) 880 11 80, (051) 880 22 80 və (051) 580 22 80 nömrələri ilə günün istənilən saatında Qaynar Xətt Xidmətinə müraciət etmək imkanı yaradılıb. Xidmət haqda ətraflı məlumatı www.usaqxetti.az internet səhifəsindən əldə etmək mümkündür.

## İTMİŞDİR

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən Məmmədov Vəli İsmayıl oğluna verilmiş Bakı şəhəri, Bakıxanov qəsəbəsi Y.Əliyev küçəsi 86 nömrəli evin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin V kurs tələbəsi Mehrəlili Hümbət İltifat oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat fakültəsinin IV kurs 2008-ci qrup tələbəsi Ağamalıyeva Jalə Vüqar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU